## Teymur Musayev səhiyyə naziri təyin olundu




**Prezident İlham Əliyev Teymur Musayevin Azərbaycan Respublikası səhiyyə nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Teymur Yusif oğlu Musayev Azərbaycan Respublikası səhiyyə nazirinin birinci müavini vəzifəsindən azad edilib.

Prezident İlham Əliyevin imzaladığı digər sərəncamla Teymur Yusif oğlu Musayev Azərbaycan Respublikasının səhiyyə naziri təyin edilib.



## Azərbaycan hərbçiləri Türkiyədə təlimə qatılıblar

**Azərbaycan hərbçiləri Türkiyədə paraşüt təlimlərinə qatılıblar.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin "Twitter" səhifəsi məlumat verir. Kurslar Kayseridə icra olunub.

❒ № 11 (5533), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 20 yanvar 2022-ci il (cümə axşamı)



# Dönüş nöqtəsi...

### 20 Yanvar milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin əmri ilə 26 min nəfərlik sovet ordusu Azərbaycanın Bakı, Sumqayıt və digər şəhərlərinə yeridildi.**

Bu hərbi müdaxilə nəticəsində 147 mülki şəxs qətlə yetirildi və 744 nəfər ağır xəsarət aldı. Bu hadisə müasir Azərbaycan tarixinə "Qara Yanvar" kimi daxil oldu. Ümumxalq hərəkatının qarşısını almaq və Azərbaycan xalqının müstəqillik əzmini qırmaq məqsədilə ölkəyə yeridilən sovet ordusu beynəlxalq hüquqün normalarını kobudcasına pozaraq dinc əhaliyə qarşı qırğın törətdi.

(səh.4)




## Prezident İlham Əliyev 20 Yanvar faciəsi ilə bağlı paylaşım edib

**Prezident İlham Əliyev 20 Yanvar faciəsinin 32-ci ildönümü münasibətilə paylaşım edib.**

Dövlət başçısının rəsmi "Tvitter" hesabında edilən paylaşımda deyilir:

"Allah bütün şəhidlərimizə rəhmət eləsin!"

## Ərdoğan Ukraynaya fevralın 3-də səfər edəcək



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ukraynaya səfərinin tarixi bəlli olub.**

APA-nın yerli bürosunun xəbərinə görə, bu barədə "CNN Türk" məlumat yayıb.

*Qeyd olunub ki, səfər fevralın 3-də, iki ölkə arasında diplomatik əlaqələrin 30 illiyinin qeyd olduğu gün baş tutacaq.*

# Vaxt itirmədən sərhədləri müəyyənləşdirmək lazımdır

### Ceyhun Bayramov: "Azərbaycan hər hansı qeyd-şərt olmadan delimitasiyaya başlanılmasının tərəfdarıdır"



(səh.4)

## Nursultan Nazarbayev ömürlük rəhbər statusundan məhrum edilib



**Nursultan Nazarbayev Qazaxıstan Xalqlar Assambleyasının və Təhlükəsizlik Şurasının ömürlük rəhbəri statusundan məhrum edilib.**

Bu barədə Qazaxıstan Parlamenti Məclisinin (aşağı palatası) deputatı Kanat Nurov bildirib. O qeyd edib ki, müvafiq qanun Məclis tərəfindən baxılıb təsdiqlənməsi üçün parlament Senatına göndərilib.

Qazaxıstan Parlamenti Məclisinin (aşağı palatası) deputatları ölkənin birinci Prezidenti Nursultan Nazarbayevin Qazaxıstan Xalqları Assambleyası (QXA) və Təhlükəsizlik Şurasında ömürlük sədrliyini ləğv edən qanunvericiliyə düzəlişləri təsdiqləyib.

# Biz hara gedirik?

### Belə gənclər azadlıqla nizam-intizamı səhv salıblar, onlar daha nələr etməz ki...

**İki hadisə hazırda müzakirə predmetidir. Birincisi, Hacı Zeynalabdin Tağıyevin abidəsinə zərər vurulması, ikincisi isə metro vaqonunda bir neçə gəncin, anlaşılmaz hərəkətlər etməsi, mayallaq aşmasıdır. Bu görüntülər sosial şəbəkədə yayılıb.**

Görüntülərdə metronun "Bakmil" stansiyasından "Nəriman Nərimanov" stansiyasına hərəkət edən qatarda bir qrup gəncin əyləncə məqsədi ilə xoşagəlməz hərəkətlər etməsi əksini tapır. Birinci hadisə də, ikinci də yalnız təəssüf doğurur. Birinci hadisə görkəmli ictimai xadimə qarşı hörmətsizlikdir, ikinci də təxminən eyni münasibətin təzahürüdür; ümumilikdə cəmiyyətə qarşı hörmətsizlikdir.

(səh.4)





## Tərtərdə 16 yaşlı məktəbli qız qaçırılıb



**Tərtərdə 16 yaşlı məktəbli qız qaçırılıb.**

Trend-in yerli bürosunun məlumatına görə, məktəbli qız evlənmək məqsədilə qaçırılıb. Hadisə Tərtər rayonunun Evoğlu kəndində baş verib. Kənd sakini 2005-ci il təvəllüdlü qız Ağdam rayon sakini Seymur Məmmədov tərəfindən qaçırılıb. Məsələ ilə bağlı DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan bildirilib ki, Tərtər Rayon Polis Şöbəsinə 2005-ci il təvəllüdlü qızın qaçırılması ilə bağlı müraciət daxil olub. İlkin araşdırmalar zamanı qızın 16 yaşını tamamladığı və ailə qurmaq məqsədi ilə öz istəyinə əsasən getdiyi müəyyən edilib.

Hazırda Tərtər RPŞ-də araşdırmalar davam etdirilir.

## Azərbaycanda yoluxma sayı sürətlə artır

### 1 151 nəfər koronavirusa yaxalanıb, 9 nəfər vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 151 yeni yoluxma faktı qeydə alınıb, 543 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 628 166 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 610 023 nəfər müalicə olunaraq sağalıb, 8 550 nəfər vəfat edib, aktiv xəstə sayı 9 593 nəfərdir.*



## "Azərbaycanda partiya üzvlərinin çoxunun yaşı 60-dan yuxarıdır"

Tural Abbaslı: "Parlamentə də qazan, kartof, qatıq satanlar cəmləşib, danışdıqlarının məsuliyyətini dərk etmirlər"

(səh.6)

## Drian riyakardır

Fransanın XİN başçısı bütün diplomatik ənənələri pozub

(səh.2)





# Liderlər Ukrayna savaşının qarşısını almağa çalışır

## Rusiya ilə yüksək münasibətlərə sahib Türkiyə və Azərbaycanın gedişləri çox önəmlidir

**İsmayıl Qocayev**

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bir neçə həftədən sonra Ukraynaya rəsmi səfəri gözlənilir. Səfər ərəfəsində Ərdoğan Rusiya və Ukrayna liderləri Vladimir Putin və Vladimir Zelenskini aradakı fikir ayrılığını həll etmək üçün Türkiyəyə dəvət edib.**

Prezidentin mətbuat katibi İbrahim Kalın deyib ki, Türkiyə Rusiya ilə Ukrayna arasında gərginliyi azaltmaq üçün əlindən gələni etməyə hazırdır. Bunu həm Rusiya və Ukraynanın dostu, həm də NATO müttəfiqi olaraq edir: ”Ruslarla sıx təmasda olacağıq ki, ağır nəticələrə səbəb ola biləcək hər hansı hərbi əməliyyatdan uzaq olaq”. Kalın söyləyib ki, Türkiyə Ukraynanın ərazi bütövlüyü, siyasi suverenliyi və sosial birliyini dəstəkləyir. Rusiya Prezidenti Vladimir Putinin sözçüsü Dmitri Peskov Ərdoğanın çağırışına cavab verib. Peskov deyib ki, Moskva istənilən ölkənin Ukrayna məsələsini həll etmək istiqamətindəki səylərini alqışlayır: ”Ankara Kiyevi Minsk razılaşmalarını yerinə yetirməyə təşviq edə bilsə, məmnun olacağıq”. Xatırladaq ki, bu ilin yanvarın 14-də Azərbaycan Prezidenti İlham Əliyev də Ukraynaya səfər etmişdi.

**Ukrayna ilə diplomatik təmasların intensiv hal almasını ”Şərq”ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib ki, tarixi məqam yetişib, nəinki bölgədə, bütövlükdə Avropa zonasında müharibənin başlama ehtimalı var:** ”Müharibə konkret bir regionu deyil, bütün planeti əhatə edə bilər. Ukraynanın işğalı Rusiyanın digər sovet respublikalarına da əl atmasına gətirib çıxarar. Ona görə də NATO açıq şəkildə bildirir ki, gec-tez Ukrayna və Gürcüstan hərbi alyansın üzvü olacaq. Ciddi toqquşma nöqtələri meydana çıxmaqdadır. Belə məqamda həm Ukrayna, həm də Rusiya ilə yüksək münasibətlərə sahib Türkiyə və Azərbaycanın gedişləri çox önəmlidir. Rusiyanın qoşulduğu savaş regionda Türkiyə və Azərbaycan üçün də ciddi problemlər deməkdir. Prezident İlham Əliyevin Ukraynaya səfəri, yaxın günlərdə cənab Ərdoğanın Kiyevə gedəcəyi xəbəri, eyni zamanda Putin və Zelenskinin Ankaraya dəvət olunması önəmli gedişlərdir. Bir növ vurğulanır ki, regiondakı problem bölgənin əsas söz sahibləri - Türkiyə və Rusiyanın iştirakı ilə həll edilməlidir. Bununla həm də Qərb bölgədə Türkiyənin gücünü qəbul etmiş olacaq. Moskva isə dəfələrlə bəyan edib ki, NATO-nun əsas müttəfiqi Türkiyə ilə bir çox məsələdə ortaq məxrəcə gəlmək mümkündür”.

# Vaxt itirmədən sərhədləri müəyyənləşdirmək lazımdır

## Ceyhun Bayramov: “Azərbaycan hər hansı qeyd-şərt olmadan delimitasiyaya başlanılmasının tərəfdarıdır”




**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Vyanaya işgüzar səfəri çərçivəsində ATƏT-in Baş katibi xanım Helqa Şmit ilə görüşüb.**

**Bu barədə “Şərq” Azərbaycan Xarici İşlər Nazirliyinə istinadən xəbər verir.**

Baş katib Helqa Şmit Azərbaycanı ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumuna (TƏF) sədrliyi münasibətilə təbrik edib. O, sədrlik prioritetlərinin müfəssəl və tarazlı olduğunu qeyd edib. Hal-hazırda ATƏT məkanında təhlükəsizlik məsələlərinin həllində TƏF-in rolunun böyük olduğunu bildirən Baş katib, Azərbaycanın cari sədrliyinin problemlərin həllinə yardımçı olacağına ümid ifadə edib. Azərbaycanın sədrlik prioritetlərinin ATƏT tərəfindən dəstəklənildiyi vurğulanıb. ATƏT Katibliyinin bu prioritetlərin icrasında Azərbaycan sədrliyi ilə yaxından əməkdaşlıq etməyə hazır olduğu ifadə edilib.

C.Bayramov Azərbaycanın ATƏT ilə əməkdaşlığa əhəmiyyət verdiyini vurğulayıb. O, təşkilat ilə layihə əsaslı əməkdaşlığın həyata keçirilməsinin mühüm olduğunu qeyd edərək, bununla əlaqədar nəqliyyat bağlılığının inkişafı, yaşıl enerjinin təşviqi, ətraf mühit məsələlərində ATƏT ilə mövcud layihələrə məmnunluqla istinad edib.

Nazir eyni zamanda, cari post-münaqişə mərhələsində həyata keçirilən quruculuq və reinteqrasiya proseslərində ATƏT-in layihə əsaslı iştirakında maraqlı olduğumuzu ifadə edib.

C.Bayramov ATƏT-in Baş katibinə hazırda bölgədə mövcud olan vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində Azərbaycanın atdığı addımlar barəsində məlumat verib.

Nazir Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyasının iki dövlət arasında münasibətlərin normallaşmasının mühüm elementi kimi nəzərdən keçirildiyini və Azərbaycanın bu prosesə vaxt itirmədən başlamağın tərəfdarı olduğunu bildirib. Təəssüflə qeyd olunub ki, Ermənistanın bu məsələdə yanaşması, o cümlədən Ermənistan tərəfindən bu xüsusda nümayiş etdirilən mövqe və delimitasiya prosesinə başlanılmasına dair bir sıra ön şərtlərin irəli sürülməsi qətiyyən məqbul deyil. Baş katibin diqqətinə çatdırılıb ki, Azərbaycan hər hansı qeyd-şərt olmadan delimitasiya prosesinə başlanılmasının tərəfdarıdır.

Tərəflər Azərbaycan-ATƏT əməkdaşlığı məsələləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.



# Qazaxıstan başlanğıcdır

## Kremlin hədəfləri daha genişdir

**”Rusiyanın Ukrayna və Qazaxıstan siyasəti Qərbin siyasi ekspertlərinin və mətbuatının diqqət mərkəzindədir. Bu dairələr Rusiyada millətçi ideologiyanın artmasına da diqqət yetirirlər”.**

**Bu barədə ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Ekspert bildirib ki, rus millətçiləri müharibədən danışarkən iki qələbəni xüsusilə vurğulayırlar:** ”Fransa imperatoru Napoleon Bonapart 1812-ci ildə 600 min nəfərlik ordu ilə Rusiya imperiyasına hücum çəkərkən qələbəyə ümid edirdi. Doğrudur, Napoleon Moskvanı ələ keçirdi, ancaq bu, qələbə demək deyildi. Napoleon Rusiya ordusuyla yanaşı bu ölkənin keçilməz yolları və sərt qışı ilə də üz-üzə qaldı, ordusunun yarısını itirdi. Bu müharibə Napoleonun çöküşünü sürətləndirdi və o, sonrakı müharibələrdə məğlub olaraq Elba adasına sürgün edildi. Rus millətçiləri ikinci nümunə kimi Alman ordusunun 1941-ci ildə SSRİ-yə qəfil hücumunu göstərirlər. Eyni ilə Almaniya diktatoru Adolf Hitler də Napoleon kimi qısamüddətli qələbəyə ümid edirdi. Hitlerin ordusu ilk aylarda xeyli uğur qazandı və ölkənin içərilərinə doğru irəlilədi. Ancaq Rusiyanın palçıq yolları və qışı Hitler ordusunun sürətini yavaşlatdı. Rus millətçiləri İkinci Dünya müharibəsi haqqında danışarkən, Alman faşizmi üzərindəki qələbədə SSRİ-də yaşayan bütün xalqların rolunu ”unudurlar”. Rusiyanın bu gün hədəf aldığı həmin Ukrayna və ukraynalılar İkinci Dünya müharibəsində alman faşistlərlə mübarizədə ön çərgədə idilər, digər millətlərin rolu da danılmazdır”.

**E.Şahinoğlu xatırladıb ki, 1991-ci ildən sonra Rusiya Çeçenistanda iki müharibə apardı.** Dağıstan və Şimali Qafqazın digər bölgələrində silahlı qrupların hücumlarına məruz qaldı: ”Rusiya bu təhlükələri dəf etdikdən sonra Qərbə meydan oxumağa başladı. Rusiyada 2000-ci illərin əvvəllərində hakimiyyətə gələn Vladimir Putin qərbli jurnalistin ”Rusiya NATO-nun üzvü ola bilərmi” sualına belə cavab vermişdi: ”Niyə də olmasın? Rusiya Avropanın bir parçasıdır”. Bu açıqlamanın üstündən illər keçdikdən sonra Putin NATO-nu düşmən obrazında qələmə verirdi: ”Hərbi alyans Şərqə doğru genişlənməməlidir, bunun qarşısını almalıyıq”. 20 il əvvəl ”Rusiya Avropanın bir parçasıdır” deyən Kreml sahibi bu gün Avropaya meydan sulayır, liberalizmin sonunun gəldiyini iddia edir. Kreml bu siyasətdən çıxış edərək hərbi bloka üzvlüyə can atan Gürcüstanla Ukraynanı hədəf seçdi”.

> Rusiya Qərblə mübarizədə Çinin dəstəyini almaqdadır

**Ekspertin fikrincə, Qazaxıstandakı son hadisələr Kremlin hədəfinin daha geniş olduğunu göstərir:** ”Təsadüfi deyil ki, hərbi alyansın baş katibi Stoltenberq ”Rusiyaya qonşu olan bütün ölkələr təhlükə altındadır” açıqlamasını səsləndirdi. Kreml Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını NATO-nun rəqibinə çevirmək istəyir. Hesab edir ki, Qərbi durdurmasa, ”arxa bağçasını” tədricən itirəcək. Misal üçün, Rusiyada belə bir fikir hakimdir ki, KTMT Qazaxıstana müdaxilə etməsəydi, Qərb bu ölkədə növbəti ”rəngli inqilabını” həyata keçirəcəkdi. Halbuki, Qazaxıstandakı hadisələrdə Qərbin izinə rast gəlinmədi.

Rusiya Qərblə mübarizədə Çinin dəstəyini də almaqdadır. İki dövləti strateji müttəfiq adlandırmaq mümkün olmasa da, Moskva ilə Pekinin Qərblə mübarizədə ortaq maraqları var. Hər ikisi Mərkəzi Asiyanı və bütövlükdə Avrasiya bölgəsini Qərbin təsirindən uzaq tutmağa çalışır”.

**İsmayıl Qocayev**

# Drian riyakardır

## Fransanın XİN başçısı bütün diplomatik ənənələri pozub

**İsmayıl Qocayev**



**Fransanın Avropa və xarici işlər üzrə naziri Jan-İv Lö Drian həddini aşan bəyanatla çıxış edib. O, yanvarın 18-də Fransa parlamentində çıxışı zamanı Azərbaycan rəhbəri İlham Əliyevin Fransa prezidentliyinə namizəd Valeri Pekresin Qarabağa qanunsuz səfəri ilə əlaqədar söylədiyi haqlı fikirlərin ”forma və mahiyyət etibarilə qəbuledilməz olduğunu” bildirib.**

Bu azmış kimi, Azərbaycan Prezidentinin əsaslı iradlarına qərəzli və öz səviyyəsinə uyğun şəkildə münasibət bildirən, daha doğrusu, sərsəmləyən Respublikaçılar Partiyasının deputatı Erik Siottinə adekvat cavab verməyib. Əksinə, onun və Pekresin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı nümayiş etdirdiyi açıq hörmətsizliyə haqq qazandırmağa çalışıb. Drian bununla həm beynəlxalq hüquqa, həm də diplomatik normalara kobud şəkildə hörmətsizlik edib. Çünki bu şəxs yaxşı bilir ki, bir ölkənin sərhədlərini pozmaq və qanunsuz və gizli şəkildə həmin ölkəyə daxil olmaq cinayət əməli hesab olunur. ”Fransanın ”baş diplomatı” ən azından həmkarlarının bu qanunsuz hərəkətlərinə etiraz etməli, bu addımın ölkəsinin rəsmi mövqeyinə zidd olduğunu dilə gətirməli idi. Xarici işlər naziri kimi o, bunu etməyə, sadəcə, borclu idi. Ancaq o, nəinki bunu etmədi, əksinə, bu qanunsuzluğa haqq qazandıraraq Azərbaycanın Prezidentinə ”dil uzatmağa” çalışdı. Artıq neçənci dəfədir ki, Fransa rəsmiləri belə cılız hərəkətləri ilə erməni diasporunun əlində oyuncağa çevrildiklərini, beynəlxalq səviyyədə qəbul edilmiş norma və prinsiplərin onlar üçün nə qədər əhəmiyyətsiz olduğunu nümayiş etdirirlər.

**Milli Məclisin Azərbaycan-Fransa Parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Soltan Məmmədov deyib ki, Azərbaycanın hədəfə alınması Fransanın sülhdə maraqlı olmasına şübhələr yaradır. Deputatın sözlərinə görə, Fransa Milli Assambleyasında Azərbaycanla bağlı aparılan son müzakirələrin məzmunu ikitərəfli münasibətlərə zərbə vurur:** ”Respublikaçılar Partiyasının üzvü Erik Siottinin çıxışında səsləndirdiyi əsassız fikirlər və Drianın bu çıxışa reaksiyası ikitərəfli əlaqələrdə etimad mühitinin yenidən bərpasına dair təşəbbüsləri zədələyir. Bu cür məsuliyyətsiz münasibət siyasi nəzakətsizlikdir. Vətən müharibəsi dövründə Fransanın nümayiş etdirdiyi ədalətsiz mövqe qarşılıqlı etimadın ciddi formada zədələnməsinə səbəb olmuşdu. Lakin son dövrlər biz əlaqələrin normallaşdırılması ilə bağlı bəzi cəhdlərin şahidi olurduq. Təəssüf ki, Valeri Pekres, Mişel Barniyer və Brüno Retayyonun Azərbaycanın ərazilərinə qanunsuz səfəri bu ümidlərə xeyli dərəcədə kölgə saldı. Azərbaycanın ərazi bütövlüyü heç bir ölkədə seçki kampaniyasının, namizədlər arasında siyasi mübarizənin elementinə çevrilə bilməz. Hər hansı bir ölkənin deputatının Azərbaycan dövlətinin ali rəhbərliyi haqqında nəzakət çərçivələrini aşan ifadələr işlətməsi qəti şəkildə yolverilməzdir”.

> “Fransalı siyasətçilərin və vəzifəli şəxslərin Azərbaycan dövlətinə, onun başçısına yönəlik böhtan, təhqir və ədəbsizliklərə qarşı ən sərt formada cavab verilməlidir”

**Millət vəkili, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa da qeyd edib ki, Lö Drian dövlət başçısının açıqlamasını olduqca ədəbsiz və məsuliyyətsiz formada şərh etməklə diplomatik ənənələri pozub:** ”Görəsən, Avropada Fransa qədər diplomatik tərbiyədən uzaq ikinci bir dövlət varmı? Maraqlıdır ki, özlərinin Milli Assambleyasına da xeyli belə tərbiyəsizləri yerləşdiriblər və gücləri çatan ölkələrə qarşı yekəxana tərzdə açıqlamalar verirlər. Azərbaycan Prezidenti bu qanmazlara izah edir ki, sənin prezidentliyə namizədin sərhədlərimizi pozaraq Azərbaycan ərazisinə daxil olur və terrorçularla əməkdaşılıq edir. Əvəzində Milli Assambleyanın Respublikaçılar Partiyasından olan üzvü Erik Siotti ədəbsizlik edərək dövlət başçısını təhqir etməyə özündə cəsarət tapır. Prezident İlham Əliyevin Valeri Pekres, Mişel Barniyer və Brüno Retayyonun Azərbaycanın ərazilərinə qanunsuz səfəri ilə bağlı açıqlamaları birbaşa suveren dövlətin beynəlxalq hüququn tələblərini xatırlatmağa əsaslanır və tamamilə məntiqlidir. Əslində Prezident əli Azərbaycan xalqının qanına bulaşmış terrorçuları dəstəkləyən bu qanuntanımaz fransızları yumşaq üslubda tərbiyələndirməyə, islah etməyə çalışıb. Pekresin Fransa prezidentliyinə namizədlik statusunun Azərbaycan ərazisində deyil, yalnız Fransada keçərli olduğunu xatırladıb. Onsuz da Azərbaycanda Fransa 44 günlük müharibə və ondan sonrakı dövrdə işğalçı Ermənistanın tərəfində yer alan və terroru dəstəkləyən ölkə kimi tanınır. Üstəlik, Fransa Milli Assambleyası tarixdə analoqu olmayan həyasızlığa imza atıb. Fransalı siyasətçilərin və vəzifəli şəxslərin Azərbaycan dövlətinə, onun başçısına yönəlik böhtan, təhqir və ədəbsizliklərə qarşı ən sərt formada cavab verilməlidir”.

**Siyasi ekspert Elçin Mirzəbəyli də vurğulayıb ki, əslində, Drian çox yaxşı bilir ki, Fransa prezidentliyinə namizəd Valeri Pekresin Azərbaycan ərazilərinə rəsmi Bakının razılığını almadan səfər etməsi qanunsuzdur.** Çünki Fransada pasport nəzarəti rejiminin və miqrasiya siyasətinin sərtləşdirilməsi ilə bağlı qanun layihəsinin müəlliflərindən biri də odur: ”Məhz onun həmmüəllifi olduğu qanun layihəsində, Fransa tarixində ilk dəfə olaraq ölkə sərhədlərinin qanunsuz şəkildə keçilməsinə görə 1 il müddətində azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulub. Belə olduğu təqdirdə, Drianın Azərbaycan ərazilərinə qanunsuz səfər edən Valeri Pekresin əməllərini tənqid etmək əvəzinə, forma, məzmun və mahiyyət etibarilə qəbuledilməz fikirlər səsləndirməsi Fransanın xarici siyasət idarəsinin rəhbərinin riyakarlığından xəbər verir”.

# “Qorbaçov ermənilərin əlində oyuncaqdır"

## İsmayıl Şıxlı: “Bakı işğalçıları cinayətlərinin izini itirmək üçün yalan və fırıldaqla məşğul olur”



**1990-cı ilin qanlı 20 Yanvar hadisələri, Azərbaycan xalqının Sovet İmperiyasının işğalçılıq siyasətinə qarşı mübarizəsi şərəfli bir tarixdir. Şərəf tarixini xalqla birgə Azərbaycan ziyalıları yazıb. Qanlı şənbə günündən sonra Azərbaycan Ali Sovetinin bir qrup deputatı bir araya gələrək insanların günahsız qətlinə etiraz edib, öz mövqelərini ortaya qoyublar. Belə ziyalılardan biri də Xalq yazıçısı İsmayıl Şıxlı idi. İ.Şıxlının həmin gün səsləndirdiyi fikirləri ”Şərq”in oxucularına çatdırırıq.**

”Mən Böyük Vətən müharibəsinin iştirakçısıyam. Çox dəhşətlər, qanlı səhnələr görmüşəm. Müharibələrə, yatırılmış üsyanlara dair çoxlu kitablar oxumuşam. Lakin heç yerdə, heç zaman bu cür qanlı, vəhşi hərəkətə rast gəlməmişəm. Dinc əhaliyə öz qoşunlarının belə əzazil, vəhşi hücumu heç vaxt olmayıb.

Bütün bu işlərə ”qanlı perestroykanın” başçısı Qorbaçov, onun əlaltıları cəllad Yazov və Primakov, sapı özümüzdən olan balta fərari Vəzirov tarix qarşısında, xalq qarşısında, məhkəmə qarşısında cavab verəcəklər.

Azərbaycan xalqı öz torpağını qoruyur. Lakin iki ildir onun dincliyi əlindən alınıb. ”Böyük Ermənistan” yaratmaq xülyasına düşən ermənilər Katalikos Vazgenin, xarici daşnakların, Moskvaya toplaşan partbiletli millətçilərin başçılığı və Qorbaçovun himayədarlığı ilə milli qırğın törədirlər. Ermənistanda muzdlu qoşun saxlanılır, Livandan, İsraildən və başqa yerlərdən terrorçular gətirilib, həmin başkəsənlər, raketlər, minamyotlar və başqa müasir silahlarla silahlandırılır. Dağlıq Qarabağda və Azərbaycanın başqa regionlarında qırğınlar törədilir, 250 minə yaxın azərbaycanlı didərgin düşüb, Qorbaçov narahat olmur, Tacikistanda zəlzələ olur, vecinə almır. Çernobıl faciəsi baş verir, tükü ürpənmir, amma bir erməninin burnu qanayanda ”Mnoqostradalnıy armyanskiy narod”- deyə göz yaşı axıdır. Heç bilmək istəmir ki, onlar ”mnoqostradalnıy armyanskiy narod” yox, ”mnoqoskandalnıy armyanskiy naroddur”. Qorbaçov isə onların əlində oyuncaqdır. Şahnazarovların aqanbekyanların, balayanların, qdılyanların, sitaryanların dedikləri ilə oturub-durur. Belə olmasa idi o, Dağlıq Qarabağda və Ermənistanda sovet hökumətini bərpa etmək əvəzinə Bakıya qoşun yeritməzdi.

Yoldaşlar, Bakıda baş verən hadisələr əvvəlcədən düşünülüb hazırlanan hadisələrdir, ermənilərin göstərişi və fitvası ilə hazırlanıb. General Yazov nə üçün səfərbərlik elan etdi? Məgər Bakıda alınmaz qala və ya təpədəndırnağa qədər silahlanmış ordu vardı? Nə üçün general Yazov səfərbərliyi Rostov, Stavropol və Krasnodar vilayətlərində elan etdi? Sibirdə, Ukraynada edə bilməzdimi? Generallar və onların ağaları nə qədər gizlətsələr də, xoruzun quyruğu görünür. Onlar həmin vilayətlərdə məhz erməniləri səfərbərliyə aldılar, əsgər paltarı geyindirib Bakınnı üstünə göndərdilər və dinc əhalini vəhşicəsinə qırdırdılar. Bu xalis genosid deyil bəs nədir? Əsgər paltarlarında ermənilərin - başkəsənlərin əli ilə işlərini gördükdən sonra onlara təşəkkür elan edib dərhal evlərinə göndərdilər. Azərbaycan televiziyasını partlatsanız da, verilişləri qadağan etsəniz də, dunya törətdiyiniz qanlı cinayətlərdən xəbərdardır. Mən təklif edirəm: Bakını ələ keçirib dinc əhalini qırmaqda böyük sərkərdəlik məhərəti göstərdiyinə görə general Yazova Marşal adı verilsin və ”Qələbə ordeni” ilə təltif olunsun. Qoy bəşəriyyətə Suvorov, Kutuzov, Jukov kimi böyük sərkərdələr verən rus xalqı öz oğlu Yazovla da fəxr etsin.

Moskva mətbuatı və başqa kütləvi informasiya vasitələri yenə də yalan danışır. Bakı işğalçıları da cinayətlərinin izini itirmək üçün yalan və fırıldaqla məşğul olur. Ölənlərin sayını səksəndən yuxarı çıxartmırlar. Mənim əlimdə şəkillər var. Semaşko xəstəxanasındakı morqda çəkilib. Qollarında nömrələri var. ”312”, ”332”. Bu təkcə bir xəstəxanada, bir gündə ölənlərdir. İndi özünüz hesablayın, görün neçə min adam qırılıb?! Bakını qəsd edən generallar ölüləri gizlətməklə, gəmilərə doldurub Narginə və başqa yerlərə aparmaqla ikinci cinayət törədirlər. Gözü yaşlı valideynlərə, ölülərin ruhuna hörmətsizlik edirlər.

Xalqı qırmaqla onun iradəsini sındırmaq cəhdi vəhşilikdir!

Azərb. SSR Ali Sovetinin fövqəladə sessiyasında qərar çıxarıldı ki, konstitusiyaya zidd olan Qorbaçovun özbaşınalığı və diktatorluğu nəticəsində elan edilən fövqəladə vəziyyət dərhal götürülsün. Amma mərkəzi hökumət susur, sakitlik törətmək əvəzinə günün-günorta çağı dənizdə silahsız barjlara, paromlara, gəmilərə hərbi gəmilərdən, toplardan atəş açılır. Əhsən belə əməliyyat aparan admiralların başına”.

Sov.İKP artıq öz simasını itirmişdir. Don Kixot yeldəyirmanları ilə vuruşduğu kimi öz xalqı ilə vuruşur. Artıq xalqın ona etimadı yoxdur. Ona görə də kütləvi şəkildə partiyadan çıxırlar.

Mənim 71 yaşım var. Bütün ömrümü bu quruluşa həsr etmişəm. Azərb. KP MK üzvlüyünə namizədəm. Xalq yazıçısıyam. Deputatam. Ali Sovetin, SSRİ Yazıçılar İttifaqının üzvü və katibiyəm. 45 illik partiya stajım var. Mən müharibədə kommunist bolşeviklər partiyasına üzv olmuşam. İndi isə bu partiya öz mahiyyətini dəyişib, faşist partiyasından da dəhşətli "SS" partiyasına çevrilib. Mən belə bir partiyanın üzvü olmaq istəmirəm.




# MEDİA növbəti 6 ayın qaliblərini açıqladı

## “Əgər yarışma varsa, burada razılar da, narazılar da olacaq”

**Medianın İnkişafı Agentliyi tərəfindən çap və onlayn media subyektlərinə dəstək layihəsi çərçivəsində növbəti 6 ay üçün elan edilən müsabiqənin nəticələri açıqlanıb.**

Bu barədə MEDİA-dan məlumat verilib.

Müsabiqədə iştirak edən 16 çap və veb-saytlardan 40-ı qalib olub.

**Müsabiqənin qaliblərindən biri də ”Editor.az” saytı seçilib. Bu barədə ”Şərq”ə danışan saytın baş redaktoru Fərid Şahbazlı bildirib ki, dövlət dəstəyinin onlayn media subyektlərini əhatə etməsi olduqca mühüm bir addım idi.**







”Çünki indiyədək ancaq qəzetlər maliyyələşirdi və etiraf etməliyik ki, ölkədə ictimai rəyin formalaşmasında internet medianın mühüm əhəmiyyəti var. Təəssüf ki, bu haqda irəli sürülən təşəbbüslər Media İnkişaf Agentliyinə qədər olan mərhələdə görməzdən gəlinmişdi...

Bu ilk addımın atılması ideya və prinsip etibarilə mühüm idi. Xüsusən bu gün açıqlanan siyahıdakıların əksəriyyəti məhdud imkanlarla, kiçik kollektivlə müstəqil fəaliyyət göstərməyə çalışan xəbər saytlarıdır. Bu da həmin media quruluşlarının fəaliyyətinə verilən ciddi qiymətdir. Bu mənada müsabiqənin nəticələrinin kifayət qədər uğurlu olduğunu düşünürəm. Əlbəttə, əgər yarışma varsa, burada razılar da, narazılar da olacaq. Bu, təbiidir.

Ancaq Medianın İnkişafı Agentliyinin internet medianın fəaliyyətinə dəstək vermək ideyası və bunun məntiqi davamı olaraq müsabiqələrin keçirilməsi Azərbaycan mətbuatında keyfiyyətcə yeni mərhələdir. Həqiqətən ötən müsabiqənin qaliblərinə baxanda gördük ki, həmin qəzetlər və saytlarda özəl, keyfiyyətli materialların sayı kifayət qədər artır. Bütün bunlar Azərbaycan mətbuatında keyfiyyət dəyişikliyinə gətirib çıxaracaq.

Buna baxmayaraq, bir müsabiqə ilə mətbuatda uzun illər yığılıb qalmış problemləri həll etmək mümkün deyil. Qısa müddətdə MEDİA-dan bunu gözləmək reallıqdan kənardır. Əsas odur ki, keyfiyyətcə dəyişikliyin olması üçün iradə var. Mən bütün qalibləri təbrik edirəm və qalib ola bilməyən digər həmkarlara qarşıdakı müsabiqələrdə uğurlar arzu edirəm”.

**Qaliblərdən biri olan ”Az-post.az” saytının baş redaktoru Xaqani Səfəroğlu isə qeyd edib ki, bizim prinsiplərimiz peşəkar media ənənələri və jurnalistlərin etik davranış kodeksləri çərçivəsində fəaliyyət göstərmək olub.**

”Fəaliyyət göstərdiyi 2 il ərzində sayt Azərbaycan mediasında müəyyən qədər öz yerini tuta bilib. Eyni zamanda ölkə mediasında fərqli yazılarla çıxış edib.

Hesab edirik ki, media sahəsində aparılan islahatlar çərçivəsində hər hansı yardım layihələri varsa biz də müraciət etməli və bundan yararlanmalıyıq. Biz saytı açarkən müəyyən layihələrimiz, planlarımız var idi. Bunun üçün də büdcə olmalıdır. Ancaq bizim məhdud büdcəmiz ilə bunları həyata keçirmək mümkün olmurdu.

Keçən dəfə də iştirak etmişdik, ancaq müəyyən səbəblərə görə maliyə yardımı ayrılmadı. Biz də bu barədə tənqidlərimizi, fikirlərimizi bildirdik. Anlayışla qarşılandı və eyni zamanda biz də ruhdan düşmədik.

Ölkədə işgüzar rəqabət mühiti olmalıdır və hər bir sayt reklamdan, abunələrdən, oxucu ianələrindən maliyyələşən media şəbəkəsinə çevrilməlidir. Bu baş verdikdə dövlət yardımı ancaq ikinci, üçüncü dərəcəli rol oynaya bilər. MEDİA-nın da niyyəti budur. Biz də onunla həmrəyik. Son 10 ildə Azərbaycan mətbuatının düşdüyü böhran mühiti ağır zərbələr vurub. Bu məsələnin tədricən həllini tapması üçün kompleks şəkildə görülən işlərə ehtiyac var. Bunlardan biri də dövlət yardımının səmərəli təqdimatı və istifadəsidir. Bütün maliyyə yardımı alan saytları təbrik edirəm, digərlərinə də gələcək layihələrdə uğurlar arzulayıram”.

**Məsələyə öz münasibətini bildirən ”Rupor.az” saytının baş redaktoru Ceyhun Musaoğlunun sözlərinə görə, yeni dövrün jurnalistika mühitinin formalaşması prosesi uğurla aparılır:** ”Jurnalist bir cümləsindən, jurnalistika bir qərarından bəllidir. Azərbaycan cəmiyyətinin demək olar bütün sferaları bir-biri ilə təmas müstəvisində fəaliyyət göstərir. Belə olduğu üçün peşəkarlığı və qeyri-peşəkarlığı anındaca görmək, qiymətləndirmək mümkündür. Jurnalistika birbaşa söz sənətidir. Ədəbiyyatdan fərqli olaraq, jurnalistika sözü deyilmədən, yazılmadan öncə min ölçülməli, bir biçilməldir. Yeni dövrün jurnalistika mühitinin bu həqiqət çərçivəsində formalaşması prosesi uğurla aparılır. Davamlı olsun”.

**Sənan İsmayıl**

# Ukrayna böhranından çıxış yolları axtarılır

## Növbəti təmasların Azərbaycan-Türkiyə-Rusiya üçbucağında baş tutacağını söyləyə bilərik



**İsmayıl Qocayev**

**Yanvarın 18-də Prezident İlham Əliyev Rusiya rəhbəri Vladimir Putinə telefonla zəng edib. Telefon söhbəti zamanı Azərbaycan-Rusiya əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olunub, strateji tərəfdaşlıq əlaqələrinin perspektivləri müzakirə edilib. Dövlət başçıları son vaxtlar Rusiya-ABŞ arasında təmaslar, Qazaxıstanda vəziyyətin sabitləşməsi ilə bağlı məmnunluq ifadə ediblər.**

Həmçinin, Ukrayna ətrafında gedən proseslər müzakirə olunub. Azərbaycan və Rusiya prezidentləri regional təhlükəsizlik məsələləri ilə bağlı da fikir mübadiləsi aparıblar.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə bildirib ki, Azərbaycan Ukrayna böhranından çıxış yolları təklif edən beynəlxalq diplomatik fəaliyyət maşınının çarxına çevrilir. Ekspertin sözlərinə görə, Prezident İlham Əliyevin Kiyevə səfəri də Rusiya-Ukrayna münaqişəsinin həllinə töhfə vermək məqsədi daşıyırdı:** ”Ölkə rəhbəri İlham Əliyevin səfəri Azərbaycan-Türkiyə-Ukrayna üçlüyünün müştərək maraqlarının bəyanı idi. Eyni zamanda Bakı-Ankara-Moskva maraqlarının Ukrayna mövzusunda uzlaşdırılması baxımından əhəmiyyətlidir. Ancaq hər keçən gün Ukrayna ətrafında yaranan situasiyanı daha da gərginləşdirir və Moskva-Kiyev qarşıdurması ehtimalları güclənir. Belə bir məqamda Qərbin ”boz kardinalı” olan Böyük Britaniya Ukraynanı silahlandırır. Görünür, bu, az da olsa Rusiya üçün çəkindirici faktora çevrilir. Yanvarın 18-də Ukraynaya tuşlanan silahların atış vəziyyətindən çıxarılması üçün yüksək səviyyəli siyasi-diplomatik təmaslar davam etdirildi. Tükiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ukraynanın işğal senarisinin mümkünsüzlüyünə diqqət çəkdi. Cənab Ərdoğan dövlət başçısı İlham Əliyevlə və rusiyalı həmkarı Vladimir Putinlə Ukrayna mövzusunu müzakirə edəcəyini bildirdi. Məhz ölkə başçısı İlham Əliyev Ərdoğanın məlum bəyanatından sonra Rusiya Prezidenti Vladimir Putinə zəng etdi. Ukrayna münaqişəsi də liderlərin müzakirə predmetinə daxil oldu. Növbəti təmasların Azərbaycan-Türkiyə-Rusiya üçbucağında baş tutacağını söyləyə bilərik. Bakının mövqeyinə müraciət edilməsinin səbəblərinə gəlincə, bu, Azərbaycan dövlətinin regional oyunçuya çevrilməsinin göstəricisi kimi qəbul oluna bilər. Təbii ki, Rusiya Ukrayna məsələsində Azərbaycandan dəstək gözləyir, amma ən azından iki səbəbə görə Bakı buna getməyəcək”.

**A.Kərimovun fikrincə, Rusiyaya dəstək ərazi bütövlüyü məsələsində Azərbaycan üçün də təhlükəli presedent yaradar:** ”Üstəgəl, Azərbaycanın siyasətində ölkələrin ərazi bütövlüyü məsələsi qırmızı xətlə keçir. Bakı regional və qlobal miqyasda nüfuz dairələrinin bölüşdürülməsi uğrunda aparılan mübarizədə mövqeyini Ankaranın maraqları ilə uyğunlaşdırır. Təmaslar həm də Britaniya amili ilə bağlıdır. Britaniyanın qlobal siyasətə dair konsepsiyasında Azərbaycanla və Türkiyə ilə əlaqələrin dərinləşdirilməsi məsələsi yer tutur. Azərbaycan postsovet ölkələrindəki prosesləri diqqətlə izləyir və baş verə biləcək hadisələrin ölkəyə təsir etməməsi üçün çalışır. Bakının regional aktora çevrilməsi yeni dünya nizamının yaradılmasına verilən strateji reaksiyadır və bu, dövlət üçün mütləqdir”.



**Ermənistanın ”Past” nəşri yazıb ki, ölkənin səlahiyyətli şəxsləri yenidən konstitusiya dəyişiklikliyinə qayıtmaq niyyətindədir. Qəzetin iddiasına görə, bu dəfə söhbət dərin, köklü dəyişikliklərdən, demək olar yeni konstitusiyadan gedir.**

Xüsusən, yarımprezidentlik idarəetmə sisteminə keçid, idarəetmə modelinin dəyişdirilməsi nəzərdə tutulur. Vurğulanır ki, Baş nazir Nikol Paşinyan ötən ilin sonuna qədər referendum keçirmək istəsə də, niyyəti

# Ermənistan konstitusiya dəyişikliyinə hazırlaşır

## Bundan sonra Azərbaycanla sülh müqaviləsinin imzalanması gözlənilləndir

baş tutmayıb. Ancaq ən geci 2022-ci ilin yazında referendumu həyata keçirmək arzusundadır. Paşinyanın Ermənistan konstitusiyasının dəyişdirilməsi üzrə komissiyanın yaradılmasına dair göstəriş verdiyi də deyilir. Erməni hüquqşünas Robert Hayrapetyan bildirib ki, konstitusiyanın dəyişdirilməsi üzrə komissiyanın yaradılması Azərbaycan və Türkiyənin istəklərinə xidmət edir: ”Hakimiyyətin sadəcə ”Qarabağın müstəqilliyi” tezisindən imtina etmək üçün konstitusiyaya dəyişiklik etmək istədiyini istisna etmirəm. Ermənistana qayıdan əsirlərə qarşı pis münasibət həm də Azərbaycan proqramının həyata keçirilməsi ola bilər”. Hayrapeytana görə, Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesi qondarma ”soyqırımın” beynəlxalq səviyyədə tanınmasının inkarından tutmuş mifik iqtisadi nəticələrə qədər ciddi təhlükələr yaradacaq. Onun sözlərinə görə, İrəvan və Ankaranın xüsusi nümayəndələri arasında danışıqlardan sonra yayımlanan mətnin erməni dilindəki variantında konstruktiv görüşün baş tutduğu, ingilis və rus mətnlərində isə danışıqların müsbət və konstruktiv atmosferdə keçdiyi bildirilib. Hayrapetyan vurğulayıb ki, Ermənistan hakimiyyəti öz seçicilərini mətnin ermənicə variantında qeyd olunan miflərlə qidalandırır. Ekspertin fikrincə, Paşinyan ölkə konstitusiyasını dəyişdirərək Türkiyəyə qarşı ərazi və saxta ”soyqırımı” iddialarından vaz keçməyi qarşısına məqsəd qoyub.

**Ermənistanın siyasi dairələrində baş verənlərlə bağlı ”Şərq”ə danışan politoloq Məhəmməd Əsədullazadə deyib ki, Ermənistanda konstitusiya islahatlarından sonra Azərbaycanla normallaşma istiqamətində addımlar atıla və sülh müqaviləsinin bağlanmasına gedilə bilər.** Analitikin sözlərinə görə, Baş nazir Nikol Paşinyan hazırkı konstitusiyanı referendumla dəyişdirməklə ilk növbədə parlament respublikasını ləğv edib, əvvəlki sistemə qayıtmağı düşünür: ”O, prezidentlik postunu tətbiq etməklə, bütün səlahiyyətləri öz əlində cəmləşdirməyi hədəfləyir. Ölkədə bütün idarəetmə sistemini əlində cəmləşdirərək hakimiyyətini gücləndirmək istəyir. Həmçinin, konstitusiyadan Türkiyəyə qarşı ərazi iddiaları və Ağrı dağının gerbdən çıxarılması, Qarabağla bağlı bəndlər çıxarıla bilər. Ermənistanın Türkiyə və Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıması üçün konstitusiyada dəyişikliklər etməlidir. Ermənistanda konstitusiya dəyişiklikləri edilərsə, sülh müqaviləsi istiqamətində addımlar ata bilər. Buna baxmayaraq Ermənistan tərəfinin təxribatları mümkündür”.

**İsmayıl Qocayev**

İsmayıl Qocayev

# Dönüş nöqtəsi...

## 20 Yanvar milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub



**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin əmri ilə 26 min nəfərlik sovet ordusu Azərbaycanın Bakı, Sumqayıt və digər şəhərlərinə yeridildi. Bu hərbi müdaxilə nəticəsində 147 mülki şəxs qətlə yetirildi və 744 nəfər ağır xəsarət aldı. Bu hadisə müasir Azərbaycan tarixinə "Qara Yanvar" kimi daxil oldu.**

Ümumxalq hərəkatının qarşısını almaq və Azərbaycan xalqının müstəqillik əzmini qırmaq məqsədilə ölkəyə yeridilən sovet ordusu beynəlxalq hüququn normalarını kobudcasına pozaraq dinc əhaliyə qarşı qırğın törətdi. Faciəvi hadisələrdən dərhal sonra ümummilli lider Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində mətbuat konfransı keçirərək, bu vəhşiliyi kəskin şəkildə pislədi. Xalqımıza qarşı törədilmiş qırğına siyasi qiymət verilməsini və günahkarların cəzalandırılmasını tələb etdi. Milli Məclisin 1994-cü ilin fevralında keçirilən xüsusi sessiyasında 1990-cı il yanvarın 20-də günahsız insanların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Müzakirələrin yekunu olaraq 1994-cü ilin martında "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan olundu.

20 Yanvar faciəsinin üzərindən 32 il keçir. Lakin beynəlxalq hüquqi sənədlərin kobud şəkildə pozulduğu, öz mahiyyətinə və miqyasına görə XX əsrdə törədilmiş ən dəhşətli cinayətlərdən biri olan bu hadisəyə siyasi-hüquqi qiymətləndirmə hələ də verilməyib. Bu cinayətə görə keçmiş sovet rəhbərliyi bilavasitə məsuliyyət daşıyır. Beynəlxalq hüquqa əsasən 20 yanvar hadisəsi insanlıq əleyhinə cinayət kimi tövsif edilməli, onun sifarişçiləri və icraçıları cəzalandırılmalıdır.

**Millət vəkili, tarixçi-alim, professor Musa Qasımlı deyib ki, 20 Yanvar qətliamı SSRİ-nin dağılmasının başlanğıcını qoydu.** Deputatın sözlərinə görə, Azərbaycan xalqına qarşı cinayət törətmiş Kommunist Partiyasının sıralarından üzvlərin istefa verməsi SSRİ-nin ideoloji əsaslarına zərbə vurdu: "Azərbaycan xalqı şəhidlərinin ruhuna ehtiram olaraq 40 gün yas saxlayıb işləməməklə vahid iqtisadi zəncirlə bir-birinə bağlı olan sovet iqtisadiyyatını dağıtdı. Moskvada sərt nəzarət altında yaşamasına baxmayaraq, Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycan nümayəndəliyinə gələrək qanlı hadisəni törədənləri ittiham etdi. Azərbaycan bundan sonra yolunun Mərkəz ilə bir olmayacağını qətiləşdirdi və müstəqillik yolunu tutdu. 20 Yanvar şəhidlərinin ruhu şaddır. Onların uğrunda mübarizə apardıqları məqsəd yerinə yetirilib. Cənab Prezidentimiz İlham Əliyevin komandanlığı altında sabitlik və güclü dövlət şəraitində millətimizin bağrından çıxan Ordumuz işğal altında olan torpaqlarımızı azad edib. 20 Yanvardan alınan bir sıra ibrət dərsləri var. Millətimizin gələcəyinin və qarşısına qoyduğu məqsədlərə çatmasının təməlində sabitlik, güclü dövlət və qüdrətli dövlət rəhbəri dayanır".

**Millət vəkili, YAP İdarə Heyətinin üzvü Cavid Osmanov da bildirib ki, 1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyil, eyni zamanda layəqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir.** Deputat vurğulayıb ki, 20 Yanvar faciəsi həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub: "1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Mixail Qorbaçovun əmri ilə qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların böyük bir kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıqla müşayiət edilib. Təbiq edilmiş fövqəladə vəziyyət haqqında əhali xəbərdar edilməyib. 20 Yanvar faciəsinin törədilmə səbəblərindən bəlli olur ki, bu, siyasi maraqlar naminə Azərbaycan xalqına qarşı törədilmiş cinayətdir. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilib. Kütləvi insan qırğını törədilərkən tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilib. Xəzər Hərbi Donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılıb. Fövqəladə vəziyyət elan edildikdən sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülüb. Qanlı yanvar hadisələrinin coğrafiyası təkcə Bakı şəhəri ilə məhdudlaşmadı. Ölkənin digər rayonlarında yanvarın 25-də Neftçala, yanvarın 26-da isə Lənkəranda 8 nəfər qətlə yetirildi. Ümumilikdə respublikada 147 nəfər öldürüldü. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını belə atəşə tuturdular".

**Parlament üzvü qeyd edib ki, Qanlı Yanvar hadisələri Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olub:** "Faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilib, dönməz xarakter alıb. Xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda görüb. 20 Yanvar hadisələri nəticəsində Azərbaycanda sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi. Baş vermiş hadisələr dünya azərbaycanlılarının təşkilatlanmasına səbəb oldu. Dünya azərbaycanlıları ilk dəfə olaraq milli faciəmizin tanıdılması naminə yaşadıqları müxtəlif ölkələrdə təşkilatlanmağa başladılar. 20 Yanvar faciəsinin yaratdığı ictimai-siyasi reallıq süqutu yaxınlaşan SSRİ-də və soyuq müharibənin bitməsi ərəfəsində beynəlxalq arenada formalaşan geosiyasi situasiya fonunda əvvəlcə Azərbaycan SSR-də, sonra müstəqil Azərbaycanda zəncirvarı tarixi proseslərə təkan verdi. Hər il yanvarın 20-si saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilir. Hüzn əlaməti olaraq dövlət bayraqları endirilir. Ölkəmizin müstəqilliyi və azadlığı uğrunda canından keçmiş şəhidlərimizin müqəddəs xatirələri xalqımızın qəlbində əbədi yaşayacaq".

# Rusiya Moldovanı da hədəf lövhəsinə gətirib

## Aqşin Kərimov: "Rəsmi Moskva SSRİ-nin "basdırdığı minaların" pultunu əlində saxlayıb"



**Moldovanın eks-prezidenti İqor Dodon bildirib ki, Moldova xalqı hakimiyyətin fəaliyyətinə qarşı müxalifət partiyalarının dəstəyi ilə etiraza qalxa bilər:**

"Etirazlar situasiyadan çıxış yoludur. Lakin düşünürəm ki, etirazlar hər hansı partiya bayrağı olmadan baş tutmalıdır. Sosialist Partiyasının yeni rəhbərliyi vahid cəbhə yaratmaq üçün digər partiyaların liderləri ilə birləşməli, insanlar küçələrə çıxıb öz mövqeyini bildirməyi bacarmalıdır".

Onun sözlərinə görə, ölkədə bütün sahələrdə diktatura rejimi qurulur və xalq bunu anladığından hakimiyyətə hələlik müqavimət göstərə bilir. Qeyd edək ki, hazırda Moldovada sürətli inflyasiya və enerji böhranı yaşanmaqdadır.

**"Moldovada hakimiyyət dəyişikliyi gözlənilirmi" sualına cavab verən siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, İqor Dodon xələfi Mayya Sandudan fərqli olaraq Rusiya yönümlü siyasətini aşkar şəkildə elan edir:**

"Rusiyanı güclü edən amil təkcə onun silah arsenalı və coğrafi yaxınlıq səbəbilə qazandığı hərbi-strateji üstünlüklə bağlı deyil. Rəsmi Moskva həm də SSRİ-nin "basdırdığı minaların" pultunu əlində saxlayıb hər an onu partlada biləcəyini bəyan edir. Moldovada da belə "mina" mövcuddur".

A.Kərimova görə, Moldova hazırda Dnestryanı münaqişədən əziyyət çəkir:

"Bu ölkədə qərbyönümlü Mayya Sandu hakimiyyətə gəldikdən sonra Moskva qəzəbinin tonunu enerji nəqlinə tökdü. Belə ki, Rusiya Moldovaya satdığı qazın nəqli ilə bağlı şantaja keçdi. Amma sonradan tərəflər arasında razılıq əldə edildi. Bununla belə, Rusiya Moldovanı da hədəf lövhəsinə gətirib".

*Analitikin fikrincə, İqor Dodonun hazırkı açıqlaması sosial etirazlardan doğan fikrin ifadəsindən çox, Kremlin artan hədələrinin elanı kimi başa düşülməlidir:* "Dodonun açıqlaması Qazaxıstan senarisinin ölkəsində təkrarlanması üçün çağırışdır ki, bu da Rusiyanın əlini gücləndirən amilə çevrilir. İndi rəsmi Moskvanın dəstəyi ilə bu ölkədə çevrilişin həyata keçirilməsi realdır. Digər tərəfdən sosial etirazların qızışdırılması da buna zəmin yaradır".

Günəş Mərd

# Məhkəmə qərar verib

## Petro Poroşenkonun azadlıqda qaldı



**Ukrayna məhkəməsi eks-prezident Petro Poroşenkonun azadlıqda qalması barədə qərar verib.**

APA-nın RİA "Novosti"yə istinadən verdiyi xəbərə görə, Kiyevin Peçersk Rayon Məhkəməsi şəxsi öhdəlik əsasında, şəxsiyyət vəsiqəsini məhkəməyə təqdim etməklə azadlıqda saxlanması barədə qərar verib.

*Xatırladaq ki, eks-prezident Petro Poroşenko dövlətə xəyanətdə ittiham olunur.*

# Merkelə BMT strukturunda iş təklif olunub



**BMT-nin Baş katibi Antonio Quterreş Almaniyanın sabiq kansleri Angela Merkelə qurumda yüksək səviyyəli müşavir postunu təklif edib.**

Azərtac bildirir ki, DPA agentliyi bu barədə beynəlxalq təşkilatdakı mənbəyə istinadla məlumat yayıb.

Angela Merkel Antonio Quterreşin təklifinə hələ cavab verməyib. Onun bu təklifi qəbul etməyəcəyi ehtimal olunur.

*Qeyd edək ki, 16 il Almaniyanın kansleri vəzifəsində çalışan Angela Merkel beşinci müddətə namizədliyini irəli sürməyib. 2021-ci ildə bu postda onu sosial-demokrat Olaf Şolts əvəz edib.*

Məlahət Rzayeva





# Biz hara gedirik?

## Belə gənclər azadlıqla nizam-intizamı səhv salıblar, onlar daha nələr etməz ki...





**İki hadisə hazırda müzakirə predmetidir. Birincisi, Hacı Zeynalabdin Tağıyevin abidəsinə zərər vurulması, ikincisi isə metro vaqonunda bir neçə gəncin, anlaşılmaz hərəkətlər etməsi, mayallaq aşmasıdır. Bu görüntülər sosial şəbəkədə yayılıb.**

Görüntülərdə metronun "Bakmil" stansiyasından "Nəriman Nərimanov" stansiyasına hərəkət edən qatarda bir qrup gəncin əyləncə məqsədi ilə xoşagəlməz hərəkətlər etməsi əksini tapır. Birinci hadisə də, ikinci də yalnız təəssüf doğurur. Birinci hadisə görkəmli ictimai xadimə qarşı hörmətsizlikdir, ikinci də təxminən eyni münasibətin təzahürüdür; ümumilikdə cəmiyyətə qarşı hörmətsizlikdir. Yanvarın 18-i Bakı metropoliteninin "İçərişəhər" stansiyasının qarşısında görkəmli xadim, messenat, Azərbaycan xalqına misilsiz xidmətlər göstərmiş Hacı Zeynalabdin Tağıyevin heykəlinin açılışı oldu. Üzərindən bir neçə saat keçdikdən sonra - gecə saatlarında isə heykəl zədələndi - Hacının əlində tutduğu təsbeh kimlərsə tərəfindən qırıldı. Sevindirici olan budur ki, hadisə operativ şəkildə araşdırıldı. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev hadisə ilə bağlı açıqlama verərək bildirib ki, Hacı Zeynalabdin Tağıyevin abidəsinə ziyan vuran şəxslər Səbail Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən qısa zamanda müəyyən olunaraq saxlanılıb. Bu şəxslər 1991-ci il təvəllüdlü Vüqar Tağızadə və 1996-cı il təvəllüdlü Allahverdi Məmmədlidir. Faktla bağlı 221-cü (Xuliqanlıq) və 246-cı (Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama) maddələri ilə cinayət işi başlanılıb. Araşdırma aparılır. Heykəlin zədələnmiş hissəsi isə artıq bərpa edilib. Analoji hadisənin təkrarlanmaması üçün müvafiq tədbirlər görülür. Ərazi 24 saat polis nəzarəti altındadır, həmçinin müşahidə kameraları da var. "Bu hadisəni törədənlər, görünür, milli dəyərlərdən uzaq adamlardır. Hər heykəlin yanına bir polis təhkim etmək olmur. Amma hadisə olan ərazidə 24 saat polis nəzarəti var. Həmçinin kameralarla da nəzarət təmin edilib. Hadisəni törədənlərə qarşı iki maddə ilə cinayət işi açılıb".

**Heykəlin müəllifi, Xalq rəssamı Xanlar Əhmədov "Sputnik Azərbaycan"-a açıqlamasında baş vermiş hadisəni təəssüf hissi ilə qarşıladığını bildirib. Onun sözlərinə görə, hadisə barədə gecə saat 02:00 radələrində xəbər tutub:** "Gecə saat 02:00 radələrində Bakı Şəhər İcra hakimiyyətinin başçısı Eldar Əzizov mənə zəng edib belə bir hadisə baş verdiyini dedi. Biz də gecə ilə ora getdik, ustaların hamısını tapıb oraya topladıq. Gecə səhərə qədər heykəlin sındırılan hissəsi bərpa olunub". X.Əhmədov bu əməli törədənlərə qarşı münasibətini də açıqlayıb: "Görünür, bunu edənlərdə güc var, ağıl yox! Yəqin onlar heykəli sındırarkən hər hansı pis vərdişin təsiri altında olublar. Yenə yaxşı ki, sındırdıqlarını aparmayıblar. Yoxsa o təsbehləri düzəltmək ən azı on gün vaxt tələb edərdi". Müəllif heykələ qarşı belə bir hörmətsizliyi gözləmədiyini də söyləyib: "Mənim ağlıma da gəlməzdi ki, heykələ qarşı belə hərəkət edərlər. Görünür, bu ağılda olan insanlar var. Amma artıq bu əməli törədənlər kameralara düşüb, tutulub, onlara qarşı hüquqi müstəvidə tədbir görüləcək. Araşdırma apardıqdan sonra bəlli olacaq ki, onlar bunu hansı səbəbdən ediblər". X.Əhmədov deyib ki, heykəl bərk materialdan hazırlansa da, təsbeh iki nöqtədə birləşdiyindən onu asanlıqla qırmaq mümkün olub: "Heykəl çox möhkəm materialdan hazırlanıb. Amma Hacının əlində tutduğu təsbeh iki nöqtədə birləşdiyindən, onu sındıra biliblər".

Metronun "Bakmil" stansiyasında nalayiq hərəkətlər edən gənclərlə bağlı da araşdırma başlanıb. DİN-in məlumatında qeyd olunur ki, sözügedən görüntülərlə bağlı Metropolitenin Polis Şöbəsində araşdırma aparılır.

Bu hərəkətlərə nə ad vermək olar? Ölkədə Hacı Zeynalabdin Tağıyevi tanımayan kiminsə olması ehtimalı sıfırdır. Kiminsə Hacıyla şəxsi-qərəzliyi də ola bilməz, bu, absurd səslənər. Bəs niyə abidə hədəfə alınıb? Abidəyə zərər verən şəxslərin müəyyən mənfi alışqanlıqların təsiri altında olmaları istisna edilmir. Bu məsələ istintaq orqanları tərəfindən araşdırılacaq. Bəs metro vaqonunda anlaşılmaz hərəkətlər edən, tutacaqdan sallaşan, mayallaq aşan gənclər nəyin təsiri altındadır? Uyuşdurucu maddələrin, yoxsa "Tik-Tok"un? Çox ciddi problemlə üz-üzəyik və bunun səbəbləri tapılmalıdır.

**Psixoloq Fərqanə Mehmanqızı "Şərq"ə açıqlamasında qeyd etdi ki, hər iki hadisə xoşagəlməzdir və təəssüf doğurur:**

- Baş vermiş bu hadisələr insanların daxilindəki aqressiyanı göstərir. Hətta Hacı Zeynalabdin Tağıyev kimi şəxsiyyətin abidəsi də müzakirəyə çıxarılır və mən sosial şəbəkəni izləyəndə görürəm ki, insanlar hətta bu məsələyə də aqressiv yanaşır, fikirlərini aqressiv şəkildə çatdırırlar. Aqressiyanı xaricə ötürməyin müxtəlif yolları var və kimsə sözlə, irad bildirməklə, kimsə də fiziki güc tətbiq etməklə daxilindəki aqressiyadan xilas olmağa çalışır. Bu, insanın düzgün formalaşmadığının əlamətidir. Xarakteri oturuşmamış, olğunlaşmamış insanlar özgüvəni təqdim etməyə, özünü fərqli göstərməyə, cəmiyyətdən fərqli olduqlarını sübut etməyə çalışırlar. Əslində isə bu, özgüvənə sahib olmaqdan deyil, əksinə, özgüvənsizlikdən irəli gəlir. Sadəcə, bəzi insanlar bunu anlamır. Elə bilirlər, sərbəstdirlər, fərqlidirlər. Halbuki bu insanların psixoloji problemləri var. Abidəyə zərər verən insanlar barədə başqa nə düşünmək olar? Yaxud metro vaqonunda nalayiq hərəkətlər edən gənclər başqa necə adlandıra bilərik? Bu insanlar şəxsiyyət kimi formalaşmayıblar, yarımçıq xarakterə malikdirlər. Özünü cəmiyyətə fərqli göstərməyə çalışan adamlarda yalqızlıq hissi güclü olur. Uyuşdurucu maddə istifadə etmək, xuliqanlıq, yersiz videolar çəkib paylaşmaq, yüngül hərəkətlərlə diqqəti cəlb etmək, bütün bunlar nəticədir. Səbəb isə insanlarda empati hissinin itməsidir. İctimai etikaya etinasızlıq, saymazlıqdır. Çünki onlara bunu öyrədən olmayıb. Bizim bəzi vətəndaşlarımızın səhvi bundadır ki, azadlıqla nizam-intizamı səhv salırlar. Deyirsən, uşağa nizam-intizam öyrədin, ictimai yerdə necə davranmalı olduğunu bilsin, etiraz edir ki, Avropada uşaqlar sərbəst böyüyür, bizim uşaqlar da qoy sərbəst böyüsün. Belə deyil. Avropada nizam-intizam da var. Demirəm, bizdə yoxdur. Amma sözüm nizam-intizamla sərbəstliyi səhv salanlaradır. Bəlkə müşahidə etmisiniz, avtobusda, metroda, parkda... valideyn uşağı sakitləşdirə bilmir. Uşaq ağlayır, çığırır, ayaqlarını yerə döyür, ana deyir "əyləş", uşaq yerlərdə sürünür ki, yox, əyləşməyəcəm. Bilirsiniz niyə? Çünki evdə uşağı əyləşdirmək istəyəndə, əyləşməyib, ana da "cəhənnəmə əyləşsin, başım ağrıdı" deyib əlini yelləyib. Uşaq da artıq buna alışıb ki, nə istəsə edə bilər. Ona görə də ictimai yerlərdə özlərini apara bilmirlər. Uşaqlara ictimai etika qaydalarını başa salmırlar. Nəticədə qaydalar da pozulur, tabular da. Bu da dünən şahidi olduğumuz hadisələrə gətirib çıxarır.

# Reallıq, müasir siyasi situasiya nəzərə alınmalıdır

## Partiyalar haqqında qanun əvvəlcə ictimai müzakirəyə çıxarılmalıdır



**"Siyasi partiyalar haqqında" yeni qanun layihəsi Milli Məclisdə müzakirəyə çıxarıla bilər. Bu barədə Milli Məclis sədrinin müavini Fəzail İbrahimli deyib.**

Onun sözlərinə görə, layihənin hərbərlik etdiyi komitənin yaz sessiyasının işlər planına daxil edilməməsinə baxmayaraq, sessiya müddətində tam hazırlanıb müzakirəyə çıxarılacağı istisna olunmur: "Komitənin işlər planına salınmaması o demək deyil ki, qanun layihəsi parlamentdə müzakirə edilə bilməz. Əgər ehtiyac olarsa, qanun layihəsi işlər planına daxil edilə və parlamentin müzakirəsinə çıxarıla bilər". Xatırladaq ki, "Siyasi partiyalar haqqında" qanun 1992-ci ildə qəbul edilib. Əksər siyasilər hesab edirlər ki, Azərbaycanda "Siyasi partiyalar haqqında" yeni qanunun qəbul olunması zərurətdir. Ölkədə fikir plüralizmi, siyasi dünyagörüş çalarları artırsa, bunun özü siyasi münasibətlərdə keyfiyyət yeniliyi yaradar. Həmçinin, qlobal çağırışlar Azərbaycandan daha təkmil fəaliyyət tələb edirsə, siyasi sistem mütləq təkmilləşməlidir. Bütün bunların da qanunvericilik bazası olmalıdır ki, fəaliyyət tənzimlənsin.

**AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə açıqlamasında bildirib ki, "Siyasi partiyalar haqqında" qanuna ötən müddət ərzində bəzi dəyişikliklər edilib.** Amma təəssüflə qeyd etməliyik ki, bu düzəlişlər çoxpartiyalı demokratik sistemin gücləmməsinə heç bir töhfə verməyib. Əgər "Siyasi partiyalar haqqında" qanun demokratik, işlək olsaydı, bu gün Azərbaycanda xeyli güclü partiyalar olardı. Bu qanun partiyaların güclənməsinə, siyasi həyatda rolunun artırılmasına, dövlət idarəçiliyində təmsil olunmasında yardımçı olmalıdır. Qanun partiyalara möhkəmlənmə və strukturlaşma istiqamətində stimul verməlidir. Siyasi təşkilatların səlahiyyətləri, imtiyazları artırılmalıdır. Bizdə 50 manata və 20 dəqiqəyə qeydiyyatdan keçirilən hansısa MMC-nin hüquq və səlahiyyətləri minlərlə insanı özündə birləşdirən siyasi partiyaların səlahiyyətlərindən daha çoxdur. Xeyli boşluqlar var. AĞ Partiya olaraq bir sıra fikirlərimizi şifahi şəkildə hökumətin diqqətinə çatdırmışıq. Hesab edirəm ki, partiyalar haqqında qanun ictimai müzakirəyə çıxarılmalıdır. Əgər qanunun işlək və faydalı olmağını, insanların ictimai-siyasi həyatda fəallığını istəyiriksə, reallıq, müasir siyasi situasiya nəzərə alınaraq qəbul olunmalıdır. Elə qanun qəbul etməliyik ki, partiyalar siyasi fəaliyyətdə peşəkarlaşsın və Milli Məclisə oliqarxlar, kartof və ya tozsoran satanlar deyil, əsl siyasət adamları düşsün".

***"Mükəmməl qanun olsaydı Azərbaycanda xeyli güclü partiyalar olardı"***

*T.Abbaslı vurğulayıb ki, partiyaların qeydiyyatı, maliyyələşməsi, qərargahla təmin olunması, regionlarda fəaliyyətinin genişlənməsi, dövlət qurumları ilə münasibətlər və s. məqamlar tənzimlənməlidir:* "Oğuz rayonunda partiyamızın şöbəsini açmaq istəyirəmsə, bu məsələ rayonun icra başçısının şəxsi kefindən asılı olmamalıdır. Əlbəttə, bəzi tələblər daha da sərtləşdirilə bilər. Məsələn, partiyanın hüquq və səlahiyyətləri artırılırsa, öhdəlikləri, məsuliyyəti də paralel artırılmalıdır. Qeydiyyatın tələblərini ağırlaşdıra, seçkidə fəal olmağı, rayon şöbələrinin sayını şərt qoşa bilərlər. O zaman bir-iki adamdan ibarət partiyalar da olmaz. Kimlərsə özlərinə "mən partiya sədriyəm" deyib gəzməzlər. Amma "Siyasi partiyalar haqqında" qanunu tələm-tələsik qəbul etmək də olmaz. Qanun partiyalara, partiyalar siyasi sistemə, siyasi sistem isə dövlətçiliyə xidmət etməlidir".

**ReAL-ın icra katibi Natiq Cəfərli isə bildirib ki, mükəmməl qanun mövcud konstitusion, iqtisadi və siyasi şəraitdə işlək ola bilməz.** Onun sözlərinə görə, "Siyasi partiyalar haqqında" yeni qanun Konstitusiya, eləcə də siyasi və iqtisadi şərait dəyişilmədən qəbul olunacaqsa, ən azından Seçki Məcəlləsinə də uyğun dəyişikliklər edilməlidir: "Hazırda mövcud olan qanunla müqayisədə yeni qanunda məhdudiyyətlər azaldılmalıdır. İctimai Televiziya parlament partiyalarını həftədə 30 dəqiqə, ayda 2 saat canlı efirlə təmin etməlidir. Partiyalar özləri bu yayımı canlı, ya da öncədən hazırlanmış məzmunla təmin etməlidir. Dövlət qeydiyyatından keçməmiş siyasi partiya adından ictimai çıxış və fəaliyyət, onun fəaliyyətində və ya fəaliyyətinin təşkilində iştirak tənzimlənməməlidir. Qeydiyyat üçün tələb olunan partiya üzvlərinin minimal sayının indiki 1000-dən 5000 nəfərə artırılması ideyası siyasi sistemin yeniliyə açıq saxlanılması marağına ziddir".

İsmayıl Qocayev



**Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayevin 225 nəfərin ölümü ilə nəticələnən etiraz aksiyalarından xeyli sonra xalqa müraciəti birmənalı qarşılanmayıb. Nazarbayevin müraciətini analiz edən siyasilər sabiq rəhbərin gecikmiş açıqlamasını müxtəlif aspektlərdə şərh ediblər.**

# Qazaxıstanda gəlirlər bərabər bölüşdürülməyib

## Ölkənin indiki halı məhz Nazarbayevin "əl işidir"

Bir qisim politoloqlar Nazarbayevin əvvəlcədən prosеslərin içində olduğunu, olayları kənardan yönləndirdiyini iddia ediblər. Digər qisim isə iddia edib ki, Nazarbayevin çıxışı montaj olunub, nitqi qayçılanıb. Hətta "elbaşı"nın məcburən danışdırıldığını söyləyənlər də çıxıb.

**Nazarbayevin çıxışı ilə bağlı söz-söhbəti dəyərləndirən Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə deyib ki, Nazarbayev dövlət idarəçiliyindəki yeganə rəsmi postunu - Təhlükəsizlik Şurasının rəhbəri vəzifəsini itirib. Onun sözlərinə görə, Nazarbayev indi sadəcə "Elbası"dır**: "Kasım-Jomart Tokayev Şuraya özünü rəhbər təyin edib. Nazarbayev 2019-cu ildə ona prezidentliyini, 2021-ci ildə isə Qazaxıstan Xalqları Assambleyasının sədri və hakim "Nur Otan" Partiyasının rəhbəri vəzifələrini təhvil vermişdi. Amma "Elbası" titulu məsuliyyət yaradır və ona görə də hazırda baş verənləri ölkədə hamı Nazarbayevlə, onun ailəsi və yaxın çevrəsiylə əlaqələndirir. Aksiya iştirakçıları "Qoca, get!" şüarını səsləndirdilər, heykəllərini aşırdılar. Çünki Qazaxıstanın indiki halı məhz Nazarbayevin "əl işidir". Hazırda Qazaxıstan böyük ərazisi və ambisiyaları, az sayda əhalisi, region və dünya siyasətinə ondan da az təsiri olan xammal ölkəsidir. Nazarbayev uzun illər boyu xalqa çiçəklənmə vəd edirdi, amma əldə olunmuş uğurlar o qədər də çox deyil. Ötən illər ərzində iqtisadiyyat böyüməyə davam edib, ancaq gəlirlər bərabər bölüşdürülməyib. Dəyişikliklərin qaçılmaz olduğunu ekspertlər hələ bir neçə il əvvəl vurğulayırdılar. Nazarbayev prezident kürsüsünü qəfildən Tokayevə güzəştə gedəndə bəziləri varisi "sosial kamikadze" adlandırmışdılar. İndi Nazarbayevin ara sakitləşəndən sonra ortaya çıxması eyni taktikanı gündəmə gətirir".



# "Qərb Ukrayna üzərində manevr etməyə çalışır"

## Samir Hümbətov: "ABŞ Kremli parçalamaq üçün əlindən gələn bütün addımları atır"

**Rusiya ABŞ-la dialoqda Moskvaya qarşı sanksiyaların nəticə vermədiyini və siyasətində dəyişikliyə səbəb olmayacağını bildirib.**

Bu barədə Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov məlumat verib. S.Ryabkov qeyd edib ki, amerikalılarla dialoq zamanı onları başa salırıq ki, "Soyuq müharibə"dən miras qalmış sanksiyalar və digər məhdudlaşdırıcı alətlər işləmir:

"Rusiya bu təzyiqə çoxdan uyğunlaşıb. Bu sahədə mümkün əlavə tədbirlər, hansılar ki, qeyri-legitim, qeyri-qanunidir, onlar ABŞ və Qərbin bizim siyasətimizdə axtardığı hər hansı dəyişikliyə təkan verməyəcək. Dəyişikliyə gətirib çıxarmayacaq".

Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov "Şərq"ə açıqlamasında da deyib ki, ABŞ Ukrayna üzərindən Rusiyaya qarşı öz təzyiqlərini artırmağa çalışır:

"Təbii ki, ABŞ-ın başlıca məqsədi Ukrayna ilə birlikdə olmaq yox, Rusiyanı iqtisadi sanksiyalara məruz qoyub, çökdürməkdir. Rusiya isə əslində ABŞ-la qarşı-qarşıya gəlmək niyyətində deyil. Eyni zamanda Rusiya bütün gücü ilə çalışır ki, özünün ətrafında qərb ölkələrinin, xüsusən də ABŞ-ın çevrələmə siyasətini əngəlləyə bilsin. Təbii ki, Pribaltika ölkələri artıq 2004-cü ildə NATO-ya qoşulublar. Eyni zamanda Belarusiyada iqtisadi durumun gərginliyi Lukaşenko hakimiyyətini çıxılmaz vəziyyətə qoyub. Üstəlik də qərbdən rəsmi Minskə qarşı sanksiyalar var. Bu da Rusiyanı ciddi narahat edən məsələlərdəndir. Qərbin Rusiya ilə bağlı digər bir planı isə rəsmi Moskvanın zəngin enerji resurslarına malik olmasıdır. Bundan hələ ki qərb ölkələri, xüsusən də Avropa Birliyinə məxsus olan ölkələr faydalanırlar. Çünki Avropada qaz təchizatı işinin əksər hissəsini Rusiya həyata keçirir. Amma ABŞ bunlara baxmayaraq Kremli parçalamaq üçün əlindən gələn bütün addımları atır. Rusiya da çalışır ki, özünün varlığını qorusun. Ukrayna torpaqlarının şərq hissəsini Rusiyanın dəstək verdiyi separatçıların əlində olması, Krımın Kremlin birbaşa ilhaqına tabe olması kimi məsələlər açıq bir oyundur. Qapalı məkanda isə məlum olduğu kimi, Finlandiya və İsveç NATO-ya qoşulmaq istəyir. Görünür ki, Rusiyanı hər tərəfdən əhatəyə almaq istəyirlər. Rusiya qərbin bu təzyiqlərinə boyun əymək niyyətində deyil. Qərb də həmçinin özünün bütün gücü ilə bu siyasətini davam etdirir. Tərəflərdən biri yumşalmaya gedərsə, gərginlik azala bilər. Lakin indiki vəziyyətdə rəsmi Moskvanın Ukrayna sərhədində yüz minə yaxın qoşunun olması, qərb ölkələrindən oraya silah dəstəyinin verilməsi, hətta Kanadadan hərbçilərin göndərilməsi, İngiltərədən silah-sursat təchizatının reallaşması onu göstərir ki, qərb ölkələri Ukrayna üzərindən manevr etməyə çalışır.

Politoloqun qənaətincə, böyük dairədə olmasa da, kiçikmiqyaslı toqquşmaların baş verməsi ehtimalı mümkündür:

"Amma Türkiyə faktorunun varlığını da nəzərə almaq lazımdır. Türkiyə də ciddi-cəhdlə çalışır ki, yaşana biləcək gərginliyə mane olsun. Təbii ki, Türkiyənin öz dövlət maraqları var. Onun təmin olunması üçün yaxşı fürsət ələ keçib. İnanmıram ki, Rusiya Ukraynanı işğal altına alsın. Edərsə, Rusiyanın parçalanmasının labüdlüyünü ortaya qoyar".

Sücayət Mehti

# "Paytaxtın Ağdama köçürülməsi təklifi ən uğurlu variantdır"

## Rəşad Məcid: "Hökumət də Bakının yükünü azaltmaq üçün tədbirlər görməlidir"

**BAXCP sədri, deputat Qüdrət Həsənquliyev Azərbaycan paytaxtının Bakıdan Ağdama köçürülməsini təklif edib. Deputat hesab edir ki, həm iqlim, həm də təhlükəsizlik məsələlərinə görə Bakı paytaxt roluna uyğun deyil.**

"Regionlarda iş yerlərinin olmaması, əksər şirkətlərin və təhsil müəssisələrinin Bakıda yerləşməsi insanların paytaxta axınına səbəb olur. Bundan başqa, ölkədəki bütün nəqliyyat vasitələrinin 72 faizi Bakıda yerləşir ki, bu da böyük tıxaclara səbəb olur. Bütün bunlar yenidən paytaxtın köçürülməsi məsələsini qabardır".

Deputat həmçinin digər strukturların da Qarabağa köçürülməsi təklifini irəli sürüb: "Bakı çox yüklənib, artıq hərəkət etmək mümkün deyil. Dövlət strukturlarının bir qismini burada qoyub, parlamentin, Prezident Administrasiyasının inzibati binalarını Ağdama köçürmək olar. Bu həm təhlükəsizlik baxımından, həm də Qarabağın tezliklə nizamlanması baxımından faydalıdır".

Regionlarda iqtisadi, siyasi, sosial, tibb, təhsil və s. ilə bağlı infrastrukturların inkişafının aşağı olması ilə bağlı vətəndaşlar bəzən problem yaşayır. Bu, insanların Bakıya gəlməsinə səbəb olurdu. Son zamanlarda ölkə ərazisindəki işsizlik səviyyəsinin artması və iş yerlərinin az olması paytaxta geniş insan axını ilə nəticələnir. Ölkədə tıxaclar artır, sıxlıq üzündən hərəkət etmək çətinləşir. Buna görə paytaxtın dəyişdirilməsi aktual mövzu olub.

Paytaxtın Bakıdan Ağdama köçürülməsi əlverişlidirmi? Bununla bağlı hansı addımlar düşünülür?

**Mövzu ilə bağlı "Şərq"ə fikirlərini bildirən "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid bu təklifi təxminən 15 il əvvəl verdiyini qeyd edib:** "Bununla bağlı "525-ci qəzet"də silsilə yazılar vermişdik. Hətta televiziyalarda debata çıxanda da bunu vurğulamışam. Fikir bu idi ki, ölkə əhalisinin az qala yarısı paytaxtda yaşayır. Bakıda narahatçılıq var. Ona görə də paytaxtı dəyişməklə bu problemi həll etmək olar. Təəssüf ki, bu, o vaxtlar alınmadı".



O, hətta fərqli şəhərlərin də paytaxt mövqeyinə uyğun olduğunu izah edib: "Biz bu məsələni qabardanda aydın oldu ki, Cümhuriyyət dönəmində də paytaxtı Göyçayda yerləşən Qaraməryəm kəndində salmaq istəyirdilər. Ora həm Arana, həm dağa yaxın olan, geniş düzənliyə malik ərazi idi. Diskusiyalar aparanda müxtəlif fikirlər səslənib. Düzdür, Ağdam onda işğal altındaydı. Gəncə, Yevlax və başqa şəhərlərin adlarını çəkənlər olurdu. İndi hesab edirəm ki, Ağdamın paytaxt olması uğurlu bir iş olar. Əlbəttə ki, bu alınsa, problemlər həll olunar. Çünki təsəvvür edin ki, Ağdam 1 milyonluq bir şəhərə çevrilərsə, ətrafdakı o xırda 20-30 minlik etnik xalq yoxa çıxacaq.

**R.Məcid bu məsələni hələ ki real hesab etmədiyini də vurğulayıb:** "Həmişə, elə torpaqlar azad olunanda da demişəm ki, Ağdamda 300-500 minlik şəhər salınması vacibdir. İstər universitetlər, istərsə də nazirliklər orada yerləşdirilə bilər. Bu həm siyasi mənada düzgün qərardır, həm də əhalinin paytaxtdakı sayını azaltmaq üçün uğurlu variantdır. Bu şəhər həddindən artıq sıxlığa malikdir. Hökumət də Bakının yükünü azaltmaq üçün tədbirlər görməlidir".

Cəmilə ƏZİM

# "İran himayə etdiklərini Azərbaycana qaytarmalıdır"

## Sədrəddin Soltan: "Dövlətimiz İrana mesaj verir ki, ölkəmizin qanunlarını pozaraq İrana sığınan azərbaycanlıları ekstradisiya etsin"

**Yanvarın 17-də üç azyaşlı İran vətəndaşı Azərbaycanla sərhədi keçib. Dövlət Sərhəd Xidmətinin (DSX) verdiyi məlumata əsasən, uşaqları sərhəd naryadı saxlayıb.**

Azyaşlılar dövlət sərhədini səhvən pozduqlarını deyiblər. Özlərini İran vətəndaşları Ateşi Əmirrza Ateş (14 yaş), Puya Bədəli Mehrac (12 yaş) və Danayi Səhənd İbrahim (11 yaş) kimi tanıdıblar. Saxlanılan şəxslər sərhəd zastavasına gətirilib. İsti yemək və lazımi şəraitdə təmin ediliblər. Qısa zaman ərzində uşaqların İrana təhvil verilməsi nəzərdə tutulub.

Dünən isə Azərbaycandan İrana 21 məhbus ekstradisiya olunub. İranın ədliyyə nazirinin beynəlxalq məsələlər və insan haqları məsələləri üzrə müavini Fəttah Əhmədinin sözlərinə görə, Astara sərhəd-buraxılış məntəqəsi vasitəsi ilə geri qaytarılan məhbuslar üçü qadındır:

"Proses İran və Azərbaycan arasında məhbusların ekstradisiyası üzrə razılaşmanın icrası çərçivəsində reallaşıb. Qeyd olunan İran vətəndaşları əsasən narkotik maddələrlə əlaqədar məsuliyyətə cəlb olunublar. İran vətəndaşları qonşu ölkələrə səfər etməzdən əvvəl həmin ölkələrin qaydaları ilə tanış olmalı, kofein, psixotrop tərkibli dərmanları özləri ilə aparmaqdan çəkinməlidirlər".



**Azərbaycanın İrana jesti ilə bağlı "Şərq"ə danışan politoloq Sədrəddin Soltan bildirib ki, Azərbaycan İranın cəzasını çəkən məhbuslarını ölkəsinə geri qaytarması ilk dəfə deyil:** "Ölkəmiz həmişə İran hakimiyyətinə xoşməramlı olduğunu göstərir. Son hadisə də Azərbaycanın rəsmi Tehrana xoş niyyətinin təzahürüdür. Dövlətimiz bununla İrana mesaj verir ki, qarşı tərəfdə həbsdə olan, ölkəmizin qanunlarını pozaraq İrana sığınan azərbaycanlıları ekstradisiya etsin. Çünki İranda Azərbaycan hökumətinə qarşı çıxış edən çoxsaylı vətəndaşlarımız var. Rəsmi Bakı dəfələrlə onların Azərbaycana qaytarılmasını istəyib. Ölkəmizin atdığı bu kimi addımlar İranın himayə etdiyi həmin şəxslərin geri qaytarılması üçündür".

Sücayət Mehti

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# 20 Yanvar milli iradəmizin zəfər günüdür

## “Qəhrəmanlıq salnaməsi ilə tanış olanlar əlbəttə vətənpərvər ruhda böyüyəcəklər”

**Gənc nəslin milli şüurunun inkişafında, vətənpərvərlik hisslərinin, azadlıq ideyasının təbliğində 20 Yanvar faciəsinin müstəsna rolu var. 1990-cı ilin 20 yanvarı xalqımızın azadlıq, müstəqillik mübarizəsinin zirvəsi olmaqla yanaşı, həm də yetişməkdə olan gənc nəslin milli-mənlik şüurunun formalaşmasında, gənclərin vətənpərvər ruhda böyüməsinə bir mayak kimi işıq saldı.**

Milyonlarla gənc bu işığa doğru istiqamət alıb gələcəyini müəyyənləşdirdi. 20 Yanvar faciəsinin 31-ci ildönümündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ”Facebook” səhifəsində paylaşım edərək bu sözləri yazmışdı: ”Milli iradəmizin zəfər çaldığı gün - 20 Yanvar”. Həqiqətən də 20 Yanvar milli iradəmizin zəfər günüdür. 2020-ci ildə Ali Baş Komandanın ”İrəli” əmri ilə düşmən üzərinə atılan və xalqımıza şanlı qələbə sevincini yaşadan əsgərlərimiz də məhz həmin qanlı, lakin fəxarət duyduğumuz o günün yetirmələridir. 20 Yanvar faciəsinin növbəti ildönümü ilə bağlı Prezident İlham Əliyevin rəsmi saytında qeyd edilir ki, 1990-cı il yanvarın 20-də ölkəmizə ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına axışaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə gətirib çıxardı. Ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Sovet imperiyasının hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi cinayətkar imperiya rəhbərliyinin xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə qovuşmağa can atan Azərbaycan xalqının həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.

Qanlı 20 Yanvar Azərbaycan xalqının tarixində təkcə faciə günü yox, həm də şərəf səhifəsidir. Xalqımız həmin gün üstünə şığıyan dəhşətli kabusa qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpası uğrunda savaşmaq əzminə sahibdir. Bunu qeyd etməliyik ki, 20 Yanvar faciəsinə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Soveti tərəfindən ilk dəfə siyasi-hüquqi qiymət verildi. Sovet hakimiyyətinin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra bir müddət başları hakimiyyət uğrunda mübarizəyə qarışan Azərbaycan rəhbərləri xalqımıza qarşı törədilən bu ağır cinayətin səbəblərinin araşdırılması və cinayətkarların müəyyənləşdirilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Yalnız ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələri dövlət səviyyəsində siyasi-hüquqi qiymətini aldı. Beləliklə, 20 Yanvar faciəsi tarixi yaddaşımızda təkcə kədərli hadisə, hüzn günü kimi qalmadı, onun xalqımızın taleyindəki və tarixindəki yeri məna və mahiyyət baxımından daha mötəbərdir. 20 Yanvar Azərbaycan xalqının tarixinə həm də fədakarlıq və qəhrəmanlıq zirvəsi kimi daxil oldu. Xalqımız XX yüzilliyin sonunda əvəzedilməz qurbanlar verdi, amma əsrlərlə iftixar ediləcək, qürur duyulacaq müstəsna iradə və cəsurluq, milli ruhun sarsılmazlığı ilə müşayiət olunan bir tarix qazandı. Bütün dünyaya sübut etdi ki, biz bir millət olaraq haqq-ədaləti bərqərar etməyə və öz ləyaqətimizi qorumağa qadirik. Odur ki, Qanlı Yanvar Azərbaycan xalqı üçün faciə olmaqdan daha çox ləyaqətini qorumaq baxımından ən uca zirvə, bu yolda hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli səhifədir. Tariximizin bu səhifəsi imperiya güllələrinin səsindən açılsa da, şəhidlərimizin qanı ilə yazıldı. Həm də əbədi yazıldı. Azərbaycan bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, ölkəmizin ərazi bütövlüyü, xalqımızın azadlığı və dövlətimizin müstəqilliyi yolunda canlarını fəda etmiş həmvətənlərimizin xatirəsini hər zaman uca tutur.



**Azərbaycan Prezidenti yanında Dövlətçilik və İdarəetmə Akademiyasının professoru Həvva Məmmədova ”Şərq”ə açıqlamasında qeyd etdi ki, Azərbaycan gəncliyinin milli-vətənpərvərlik hisslərinin tərbiyəsində 20 Yanvar faciəsinin əhəmiyyəti danılmazdır:**

- 20 Yanvar, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalanlara rəhmət diləyirəm. 20 Yanvar faciəli tarix olsa da, Azərbaycan tarixinin həm də şanlı səhifəsidir. Statistikaya baxsaq görərik ki, 20 Yanvarda sovet imperiyasının ağır texnikasının önünə çıxan, sinəsini güllələrə sipər edənlərin böyük əksəriyyəti gənclər olub. Şəhidlər Xiyabanında uyuyan şəhidlərimizin baş daşlarındakı fotolara baxanda da bunu görürük. Şəhidlərimizin demək olar böyük əksəriyyəti gənclərdir. Bu o deməkdir ki, Azərbaycan xalqı 70 il sovet imperiyasının əsarətində qalsa da, xalqımızın azadlıq eşqi ölməmişdi. Xalqımız azadlıq, müstəqillik ideyalarına sadiq idi. Bilirsiniz ki, 20 Yanvar faciəsinə aparan yol həm də Qarabağdan keçirdi. Mənfur qonşularımız ərazi iddialarına başlamışdı, Qarabağda faciəli hadisələr baş verirdi. Məhz xalqımızın sarsılmaz əzmi, Qarabağı heç vaxt güzəştə getməyəcəyini əminliklə bildirməsi sovet imperiyasının silahları işə salmasına səbəb oldu. Lakin bu da xalqımızın iradəsini qıra bilmədi. Xalqımız və vurquladığım kimi gənclərimiz əliyalın zirehli texnikanın qarşısına çıxdı. 20 Yanvar şəhidlərindən örnək alan, onların şəhidlik məktəbini davam etdirən gənclər də 28 il sonra torpaqlarımızı işğaldan azad etdilər. Bu nəyin sayəsində oldu? Təbii ki, Ali Baş Komandannın qətiyyəti, 30 il ərzində uşaqlarımıza, gənclərə aşılanan milli-vətənpərvərlik ruhu sayəsində. Nəinki 20 Yanvar faciəsinin ildönümlərində, adi vaxtlarda da uşaqlar, məktəblilər Şəhidlər Xiyabanını ziyarət edirlər. Bu qəhrəmanlıq salnaməsi ilə tanış olanlar əlbəttə vətənpərvər ruhda böyüyəcəkdi. Və biz bu gəncləri 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsində cəbhədə, ön sıralarda gördük. Minlərlə gəncimiz canını Vətən torpaqlarının işğaldan azad edilməsi üçün əsirgəmədi, şəhid oldular, qazi oldular. Bu, hər birimiz üçün fəxrdir, qürurdur.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Uçuşlar fevralın 2-də başlayacaq

## Ankara-İrəvan yaxınlaşması Ermənistanın nicat yoludur

**Türkiyədən Ermənistana uçuşlar fevralın 2-də başlayacaq. Bu barədə Türkiyənin Nəqliyyat və İnfrastruktur Nazirliyindən məlumat verilib. Ekspertlərin fikrincə, Ermənistan-Türkiyə münasibətləri 44 günlük Vətən müharibəsindən sonra yaranan yeni geosiyasi reallığın bir parçasıdır.**

Lakin Türkiyənin açıq-aydın mövqeyi var ki, Ankara-İrəvan münasibətlərinin normallaşması Azərbaycanla Ermənistanın münasibətlərinin səviyyəsindən asılı olacaq. Türkiyə Ermənistanla bağlı məsələlərdə tələsik addımlar atmaqda maraqlı deyil. Rəsmi Ankara hesab edir ki, dərin və geniş müzakirələrin aparılmasına ciddi ehtiyac var. Türkiyə ilə Ermənistan arasında uzun müddətdir diplomatik münasibətlər mövcud olmayıb. Hər halda hava nəqliyyatının açılması bir başlanğıcdır və heç şübhəsiz, davamı olacaq.

**Ankara-İrəvan münasibətlərinin normallaşma prosesini ”Şərq”ə dəyərləndirən Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib ki, Türkiyə və Ermənistan nümayəndələrinin təmasları Azərbaycanın maraqlarına uyğundur. Partiya rəhbərinin sözlərinə görə, istər rəsmi Bakı, istərsə də ölkəmizin siyasi qüvvələri bu təmasları alqışlayır:** ”Yeni normallaşma prosesini Türkiyə Azərbaycanla birgə şəkildə, öncədən razılaşdırılmış prinsiplər əsasında həyata keçirəcək. Bunu qardaş ölkənin Xarici işlər naziri Mövlud Çavuşoğlu da dəfələrlə bildirib. Müsbət haldır ki, qarşı tərəfdən Nikol Paşinyan və Ermənistanın digər rəsmi şəxsləri də heç bir ön şərt qoymadan danışıqlara hazır olduqlarını bəyan ediblər. Eyni zamanda real addımlar atmağa başlayıblar. Paşinyan Türkiyə və Azərbaycan ilə münasibətlərin normallaşdırılmasına mane olan əsas səbəblərdən biri kimi Ermənistan konstitusiyasından ”soyqırımı” ifadəsinin çıxarılmasını planlaşdırır. Bu, Ermənistan tərəfindən hər iki ölkənin ərazi bütövlüyünün tanınmasını da sürətləndirə bilər. Lakin Paşinyanın bu planları Ermənistanın millətçi-revanşist müxalifəti və xaricdəki erməni diasporu, erməni lobbi qrupları tərəfindən kəskin müqavimətlə qarşılaşır. Onlar Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməyi, sərhədlərin dəqiqləşdirilməsini erməni xalqının maraqlarına zidd addım kimi qiymətləndirirlər. Bu da səbəbsiz deyil. Axı xaricdəki erməni diasporunun və lobbisinin öz mövcudluğunu davam etdirməsi məhz bu qondarma ”soyqırımı” iddialarının bundan sonra da təbliğ olunmasından, ənənəvi türk düşmənçiliyinin körüklənməsindən asılıdır. Onlar öz mövcudluq səbəblərindən məhrum olmağa hazır deyillər. Qondarma ”soyqırımı” təbliğatı uzun illər boyu erməni diasporunu ayaqda saxlayıb, birləşdirib. Bu onlar üçün həm də zəhmətsiz qazanc mənbəyinə çevrilib. Ona görə də nə ”Daşnaksütyun”, nə də digər qruplar qondarma ”erməni soyqırımı” biznesindən məhrum olunmaq istəyirlər. Radikalların Paşinyanın qonşularla münasibətlərin normallaşdırılması kursuna sərt təpki göstərmələri də ilk növbədə bundan qaynaqlanır”.

***“Paşinyan revanşist qüvvələrin müqavimətini qırmağa məcbur və məhkumdur”***

*Ə.Hüseynov vurğulayıb ki, Paşinyan onların müqavimətini qırmağa, başlatdığı kursu davam etdirməyə məcburdur:* ”Paşinyan dərk edir ki, bir tərəfdən Türkiyə ilə münasibətlərin normallaşması, digər tərəfdən Azərbaycanla sülh müqaviləsinin bağlanması və əlaqələrin qurulması ilk növbədə Ermənistanın özünün xilası deməkdir. Paşinyanın komanda üzvləri də hesab edirlər ki, Türkiyə ilə münasibətlərin normallaşması Ermənistan üçün yeni imkanlar yaradacaq. Hətta ölkədə işsizlik problemini də bir xeyli dərəcədə həll edəcək. Ermənistan parlamentinin vitse-spikeri Akop Arşakyan bildirib ki, ”Ermənistan ilkin şərt olmadan Türkiyə ilə münasibətləri normallaşdırmağa və sərhədləri açmağa hazırdır, çünki bu, Ermənistanın və erməni xalqının maraqlarından irəli gəlir”.

Ermənistan rəhbərliyində bu cür konstruktiv mövqedən çıxış edən şəxslərin artması əlbəttə, Nikol Paşinyanın mövqelərini gücləndirir. İndi Paşinyan yaranmış fürsətdən istifadə edib Türkiyəyə və Azərbaycana qarşı ənənəvi düşmənçilik mövqeyindən çıxış edən millətçi-revanşist qüvvələri zərərsizləşdirmək istiqamətində qətiyyət nümayiş etdirməlidir”.

**İsmayıl Qocayev**

# "Azərbaycanda partiya üzvlərinin çoxunun yaşı 60-dan yuxarıdır"

## Tural Abbaslı: “Parlamentə də qazan, kartof, qatıq satanlar cəmləşib, danışdıqlarının məsuliyyətini dərk etmirlər”

**Siyasi partiyalar dövlətin demokratik baxışlarının təzahürüdür. Ümummilli dəyərləri özlərində cəmləşdirən, vətəndaşın siyasi sferada rolunu təmin edən ən vacib qurumlardandır. Ölkədə 56 partiya fəaliyyət göstərir. Çoxusu işlərini görə bilmir. Həmçinin gənc kadrlara ya çox az yer verilir, ya da heç verilmir.**

*Niyə partiyaların çoxu fəaliyyətsiz görünür, səbəblər nədir?*

**Sualımızı cavablandıran AĞ Partiyanın sədri Tural Abbaslı ”Şərq”ə deyib ki, partiyalarla bağlı problem qlobaldır və bu, hərtərəfli analiz olunmalıdır:**



”Təəssüf ki, problemin gələcəkdə nə kimi fəsadlar yaradacağını da düşünə bilmirik. Partiya sisteminin sıradan çıxması, gənclərin siyasi fəaliyyətə maraq göstərməməsi, təşkilatların zəifləməsi, bir çoxunun defakto ləğv olunması, dövlətin ictimai-siyasi həyatında rol oynamaması təhlükəsizlik məsələsidir. Partiya üzvlərinin çoxunun yaşı 60-dan yuxarıdır. 10 il sonra bu insanlar normal fəaliyyət göstərə bilməyəcəklər. Gənc kadrlara mütləq şərait yaradılmalıdır.

**Tural Abbaslı partiya sisteminin xüsusi bir məktəb olduğunu vurğulayıb:**

”Bəs, dövlətin bu qədər postları, bu qədər siyasi vəzifələri, kimlərə veriləcək? Heç bir tədqiqatçılığı olmayan, idarəçilikdə formalaşmayan insanlaramı həvalə olunacaq? Ona görə də partiyalara təkcə siyasi rəqabət prizmasından baxılmamalıdır. Həm də dövlətin təhlükəsizliyi məsələsini təmin edən, milli kadrları yetişdirən bir məktəb kimi baxmaq lazımdır. Mətbuat yaranandan jurnalistikanın hər sahəsi üçün məktəb formalaşdırılıb. Lakin siyasi partiyalarla bağlı biz belə bir vəziyyəti görə bilmirik. Bu da problemlər yaradır”. *Partiya sədri parlamentdə fərqli insanların olduğunu qeyd edib:*

”Parlamentin tərkibində qazan, kartof, qatıq və s. satanlar cəmləşib. Danışdıqlarının da məsuliyyətini dərk etmirlər. Deputatın biri siyasətə qarışmadığını deyir, biri çörəyin qiymətinin qalxmasını dilə gətirmir. Bunların qarşısını almaq üçün dövlət xüsusi proqram qəbul etməlidir. Partiyalar arasında qanun real siyasi şəraitə uyğunlaşdırılmalıdır. Kəmiyyət və keyfiyyət fərqinə fikir verilməlidir. Şərtlər müəyyən olunmalıdır. Ola bilsin, həmin şərtlər sərt olsun. Hansı partiya bunlara düzgün əməl edərsə, fəaliyyəti üçün dövlət tərəfindən bütün şərait yaradılmalıdır”.

**Tural Abbaslı fəsadlardan da söz açıb:** ”Öz partiyalarına sahib çıxmayan dövlətin partiyalarına sahiblənəcək dövlətlər tapılacaq. Sözümü nəyə gətirirəm, Azərbaycan İslam Partiyasının 2 rəhbəri vətənə xəyanətə görə həbsdədir. Digər partiya sədri başqa bir dövlətə xidmət edir. Ona görə dövlətin partiyalara yanaşma tərzi mütləq dəyişməlidir”.

**Cəmilə ƏZİM**

# Ukrayna Rusiyanın cəngindən qorunacaqmı?

## Avropa İttifaqı Ukraynaya “sarsılmaz” dəstəyini təkrarlayıb

**Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Josep Borrell Ukraynaya dəstək bəyanatı verib.**

”Şərq” xəbər verir ki, J.Borrell Ukraynanın Xarici işlər naziri Dmitro Kuleba ilə görüşüb və Aİ-nin bu ölkəyə dəstəyini təsdiqləyib.

J.Borrellin ofisindən verilən açıqlamaya görə, J.Borrell və Kuleba arasında telefon danışığında ”Rusiyanın Avropa təhlükəsizliyinin əsas prinsiplərini pozmaq cəhdləri ilə bağlı beynəlxalq diplomatik səylər” barədə fikir mübadiləsi aparılıb.

J.Borrell keçən həftə Fransanın Brest şəhərində keçirilən Aİ xarici işlər və müdafiə nazirlərinin qeyri-rəsmi görüşündən, həmçinin ABŞ və NATO ilə təmaslardan sonra Ukraynaya ”sarsılmaz” dəstəyini təkrarlayıb.



Aİ-nin Rusiyanı gərginliyi azaltmağa və qoşunlarını Ukrayna sərhədindən çıxarmağa davam edəcəyini bildirən J.Borrell, Ukraynanın təmkinli mövqeyini alqışlayıb.

Görüşdə Ukraynanın dövlət qurumlarına kiberhücumlar da müzakirə edilib. Aİ tərəfi bu cür hücumlara qarşı müqavimətini artırmaq üçün Ukraynanı dəstəkləməyə davam edəcəklərini bəyan edib.

**Aygün Tahir**



## Buludlar dənizlə birləşdi

Ortaya möhtəşəm görüntü çıxıb

**Türkiyənin Kastamonu bölgəsi, Çatalzeytin ərazisində buludlar dənizlə birləşib. Ortaya möhtəşəm, hər kəsi heyran edən görüntü çıxıb.**

"CNN Türk"- də yer alan məluamta görə, Qara dənizdə yaranmış bu mənzərə qarşısında donub qalanlar da olub, mənzərəni mobil telefonla görüntüləyənlər də. Bu heyranedici və ecazkar təbiət hadisəsinin səbəblərini izah edən meteorologiya mühəndisi Adil Tək "CNN Türk"-ə açıqlamasında bunu soyuq hava kütlələrinin dəniz üzərindən keçməsi ilə izah edib: "Buludların dənizlə birləşməsi böyük ehtimalla qar yağışı adlandırdığımız təbiət hadisəsinin təsiri ilə baş verib. Kastamonuda hər tərəf bəyaz qara bürünüb. Qütb soyuğunu özüylə gətirən soyuq hava kütləsi dəniz üzərindən keçərkən bir tərəfdən isti, bir tərəfdən də rütubətli havayla birləşib, nəticədə bu gözəl mənzərə yaranıb. Bu, indiyədək gördüyümüz ən möhtəşəm mənzərələrdən biridir. Təbiət yenə də bizi özünə heyran etdi".

**Məlahət**

## İran Prezidenti Kreml binasında namaz qılıb



**İran Prezidenti İbrahim Rəisi rusiyalı həmkarı Vladimir Putinlə danışıqlardan sonra Kreml binasında axşam namazı qılıb.**

"Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, bu barədə "Tasnim" agentliyi məlumat yayıb.

Agentlik teleqram kanalında Rəisinin Kreml binasında xüsusi xalça üzərində namaz qıldığını əks etdirən foto yayıb.



# "Omicron" dünyada sürətlə yayılır

Professor yeni ştammın əlamətlərini açıqladı

Məlahət Rzayeva

**"Omicron" ştammının əlamətləri açıqlanıb. BBC (Türkcə) xəbər verir ki, "Omicron" ştammı sürətlə yayılsa da, virusun zəif simptomları insanların onu qrip və soyuqdəymə ilə səhv salmalarına səbəb olur.**

Bu isə yeni ştamma yoluxma sayının artmasına gətirib çıxarır. Xüsusən də peyvənd vurdurmamış və risk qrupuna aid insan üçün təhlükə realdır. King-s College London Epidemiologiya bölümünün "ZOE" Covid Araşdırmaları İnstitutunun başqanı, professor Tim Spector BBC-yə, açıqlamasında "Omicron"un "Delta" variantını yüngül keçirmiş insanlarda müşahidə edilən əlamətlərlə eyni olduğunu söyləyib. Alim "Omicron"un indiyədək qeydə alınmış 5 əlamətinə diqqət çəkib. Bunlar, burun axması, baş ağrısı, yorğunluq, asqırmaq və boğaz ağrısıdır. Bu əlamətlər peyvənd olunmuş və ya hansısa şəkildə immunitet qazanmış şəxslərdə müşahidə edilir. "Omicron"un peyvənd vurdurmamış və ya immuniteti zəif şəxslərə hansı dərəcədə təsir edə biləcəyi barədə isə dəqiq qənaət yoxdur. T.Spector bildirib ki, "Omicron"u bildiyimiz soyuqdəymə əlamətləri ilə keçirənlərin virusa yaxalandıqlarını fərq etmələri çətin olur. Əslində isə soyuqdəymə əlamətləri daşıyan insanların "Covid-19"-a yoluxmuş olmaları ehtimalı daha yüksəkdir. Belə vəziyyətdə ən doğru seçim testdən keçməkdir. "Covid-19"-a yoluxmada öskürək, iy və dadbilmə qabiliyyətinin itməsi əlamətləri var. Lakin son zamanlarda yoluxmaya məruz qalmış şəxslərdə artıq bu əlamətlərə rast gəlinmir. Hansı əlamətlərə ciddi yanaşılmalıdır? Alim qeyd edir ki, davamlı öskürək, yüksək hərarət, iy və dadbilmənin itməsi virusa yoluxmanı göstərir. Bədənin temperaturu 37.8-dən yüksəkdirsə, artıq bu, hərarətin olması deməkdir. Məlumdur ki, bədənin hərarəti orqanizm hər hansı infeksiya ilə mübarizə apararkən üzə çıxır. Əgər əlinizin altında hərarət ölçən yoxdursa, sinədə və kürəkdə istilik hiss edib-etmədiyinizə diqqət edin. Soyuqdəymə zamanı, adətən hərarət yüksəlmir, qızdırma olmur. Qızdırma bəlli virusa yoluxma əlamətidir. Koronaviruslu xəstələrdə öskürək uzunmüddətli olur, 1 saatdan çox davam edir. Eyni anda hərarət, öskürək, dad və iybilmənin itməsi əlamətləri yoxdursa, asqırmaq "Covid-19" əlaməti sayılmaz. O cümlədən burun axması da "Covid-19" əlaməti deyil. Bəzi Covid xəstələrində burun tutulması müşahidə edilir. T.Spector "Omicron"un bağırsaq infeksiyalarına yol açdığını da deyib. "Omicron" yoluxmanın 5-ci günündə özünü göstərir. Nəfəs darlığı isə daha ciddi bir infeksiyaya yoluxmanın əlaməti ola bilər.






## Tramp iki mindən çox lüks ev tikdirməyi planlaşdırır



**ABŞ-ın sabiq prezidenti Donald Tramp Mayami şəhərində özünə məxsus qolf kurortunda 2 mindən çox lüks ev tikdirmək niyyətində olduğunu bildirib.**

Trend-in məlumatına görə, bu barədə "Bloomberg" agentliyi yazıb.

**Qeyd olunur ki, ərazidə yeni kommersiya binaları və daha bir qolf meydanı inşa olunacaq. Məlumatlara əsasən, D.Tramp artıq bir neçə milyon dollar vəsait xərcləyib. Sabiq prezident həmin ərazini 2012-ci ildə əldə edib. "Trump National Doral" kurortu 283 hektar ərazini əhatə edir, dörd qolf meydançası və lüks hotel yerləşir.**

**Pandemiyaya qədər bu obyekt D.Trampa ildə 70 milyon dollara yaxın gəlir qazandırırdı.**

## Yeni serialda rol alacaqlar



**Yaxın zamanda yayımlanması planlaşdırılan "Yaratılan" serialının heyətində rol alacaq adlardan bəziləri bəlli olub.**

**Axşam.az xəbər verir ki, ekran işində aktyorlar Bülent Şakrak və Devrim Yakut yer alacaq. 8 bölümdən ibarət ekran işinin rejissoru isə Çağan Irmak olacaq.**

**Qeyd edək ki, serialın baş rollarını Taner Önmez və Erkan Kolçak ifa edəcək. Devrim hazırda "Camdaki kız" serialında Gülcihan obrazını canlandırır.**

## Dünyanın ən yaşlı sakini vəfat edib



**Dünyanın ən yaşlı sakini, ispan Saturnino de la Fuente Qarsia 113 yaşında vəfat edib.**

**APA-nın xəbərinə görə, bu barədə Ginnesin Rekordlar Kitabı öz saytında məlumat yayıb.**

**Məlumatda göstərilir ki, 112 il 341 gün yaşamış Saturnino de la Fuente Qarsia vəfat edib. Ölümün səbəbi açıqlanmır.**

**1909-cu ildə İspaniyanın Leon şəhərində anadan olan Qarsia boyu kiçik olduğu üçün İspaniyada vətəndaş müharibəsi dövründə orduya çağırılmayıb. O, çəkməçi sexi açaraq ordu üçün ayaqqabı istehsal edib.**



# Pandemiya gəncləri daha da çökdürüb

Alimlər: "Koronavirusdan sonra tənhalıq və depressiya pandemiyası gələcək"

**Psixoloqlar gənclər arasında tək qalmaq, tənhalıq probleminin artması barədə həyəcan təbili çalır. Medicina.az xəbər verir ki, alman psixoloqları 125 min nəfəri əhatə edən yeni elmi araşdırma aparıblar.**

Son 40 ildə gənclər özlərini daha çox tənha və lazımsız hiss etməyə başlayıb.

Tənhalıq o halda yaranır ki, insanlar arzuolunanla real sosial münasibətlərin birbirinə uyğun gəlmədiyini görür. Bu vəziyyətin pik həddi 23-29 yaş arasında olur. 20-29 yaş arasında romantik, dostluq və sosial münasibətlər əhəmiyyətlidir və artıq formalaşmış olmalıdır.

Alimlər tənhalığı araşdıran 345 elmi tədqiqatı analiz edərək, belə qərara gəliblər ki, gənclər danışmağa, fikir bölüşməyə insan tapa bilmir, ətrafında çox sayda insan olsa da özünü təklənmiş hiss edir.

Tənhalıq hissi həm Amerikada, həm Avropada artan temp üzrə gedir. Eləcə də Yaponiya və Çin geri qalmır. 2012-ci ildən sonra smartfon, sosial şəbəkələrin artması tənhalığın sürətini azaldıb, lakin bunlar real yox, virtual münasibətlərdir.

*Alimlər pandemiyanın gəncləri daha da çökdürdüyünü deyərək, koronavirusdan sonra tənhalıq pandemiyasının yaranacağını proqnozlaşdırır.*

# Norveç kralının nəvəsi Tik-Tok fenomenidir

16 yaşlı şahzadənin paylaşımları böyük əks-səda doğurur



**Norveç kralı V Harald və kraliça Sonyanın nəvəsi, 16 yaşlı şahzadə Li İsadora Benn sosial media fenomeninə çevrilib.**

"Şərq" "CNN Türk"-ə istinadən bildirir ki, şahzadə instagram və Tik-Tok sosial mediasında cəlbedici paylaşımlar edir. Şahzadə gün ərzində gördüyü işlər barədə sosial media üzərindən hesabatlar verir. Alış-verişə getdiyini, nələr aldığını, makiyaj sirlərini də sosial mediada paylaşır. Şahzadənin 200 mindən artıq izləyicisi var. Şahzadə media təhsili alıb. Paylaşımları arasında isə dəbdəki yeniliklər, vizaj və makiyaj xəbərləri daha çox baxılır və bəyənilir. Tik-Tok-dakı paylaşımlarının izlənmə sayı isə 10 milyona yaxındır. Kral sülaləsində 6-cı pillədə qərarlaşmış şahzadə Lea valideynləri, xüsusilə də anası ilə münasibətlərini komediya-dram janrında çəkilmiş "Qilmor qızları" *(Gilmore Girls)* adlı məşhur amerikan teleserialındakı Rory və Lorelainin münasibətlərinə bənzədir.

**Məlahət**

## "Simpsonlar"ın öngörməsi...

Epidemiya 2022-ci ildə insanların həyatından çıxacaq




**Kəhanətləri ilə damğasını vuran "Simpsonlar" cizgi serialı bir çox hadisələri öncədən proqnozlaşdırıb.**

"Şərq"in məlumatına görə, Çinin Vuhan şəhərində ortaya çıxan və bütün dünyanın həyatını təhdid altına alan, koronavirusdan xəbərdar "Simpsonlar"ın 2022-ci il kəhanətləri bəşəriyyət üçün ümidvericidir.

32 ildir ekranlarda yayımlanan və geniş pərəstişkar kütləsi olan serial, Disneyin "Fox"u satın alması, Trampın prezidentliyi dönəminə də biganə qalmayıb.

Sanka cizgi filminin senaristləri ABŞ-da Kamala Harrisin başqanlığı "Kolomb" heykəlinin başının kəsilməsi, ağıllı saatlar, ebola və korona virusu, Ledi Qaqanın "Super Bowl"da havaya uçması kimi hadisələrdən xəbərdar idi.

İndi isə "Simpsonlar" serialı koronavirus kəhanətləri ilə gündəmə gəlib. 2019-cu ildən etibarən dünyanı cənginə alan koronavirusa bənzər bir epidemiyanın başlanğıcını öncədən təxmin edən "Simpsonlar" bu dəfə də "taclı bəla"nın sonuna dair proqnozlarla diqqət çəkiblər. Məşhur animasiya serialına görə, epidemiya 2022-ci ildə insanların həyatından çıxacaq.

**Aygün Tahir**

## Şotlandiyada Türkiyə sultanlarının portretləri tapılıb



**Şotlandiyada dəyəri 50-70 min funt sterlinq qiymətləndirilən malikanənin çardağında Osmanlı İmperiyası hökmdarlarının qədim portretləri tapılıb.**

Azərtac Türkiyənin "Ahval News" nəşrinə istinadən bildirir ki, rəsmlər Şotlandiyanın Cedboro şəhəri yaxınlığındakı malikanədə saxlanılır. Kətan üzərində çəkilmiş rəsmlərdə XVI əsrdə Osmanlı İmperiyasında hökmranlıq edən sultan Süleyman Qanuni, XIV əsrin sonlarında hakimiyyətə gələn Sultan I Yıldırım və 1481-ci ildə taxta çıxan Sultan II Bəyazid təsvir edilib. "Sotheby's" Hərrac Evi Şotlandiya filialının rəhbəri Devid Makdonald tapıntını inanılmaz adlandırıb. O hesab edir ki, portretlər XVII əsrdə üçüncü Lothian qrafı tərəfindən Avropada səyahətdə olarkən əldə edilib. Rəsmlərin yanvarın 20-də hərraca çıxarılacağı gözlənilir.

## Qonşularına görə villasını satır



**Avstraliyalı reper İqqi Azaliya Kaliforniyada yerləşən malikanəsini satışa çıxarıb.**

Axşam.az xəbər verir ki, buna səbəb ifaçının oğluna oyun meydançası tikmək üçün qonşularından icazə ala bilməməsi olub. O, evi 6,2 milyon dollar qarşılığında yeni sahibinə təqdim edəcək.

500 kvadratmetrlik ikimərtəbəli evdə yataq, vanna otağı, mətbəx, idman zalı, hovuz, ofis, spa və dörd maşınlıq qaraj var.

*Qeyd edək ki, İqqi sözügedən mülkü bir il əvvəl 5,2 milyon dollara almışdı.*